RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 161 (8754) CÜMƏ AXŞAMI, 5 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Birliyin və dostluğun təcəssümü

## İlham ƏLİYEV: "Bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq"

**Miqyasına və məzmununa görə dünyada analoqu olmayan Azərbaycan-Türkiyə münasibətləri ötən ilin 44 günlük Vətən müharibəsi zamanı özünün tarixi sınağından layiqincə çıxaraq daha da möhkəmləndi. Xalqımızın möhtəşəm Qələbəsi ilə başa çatan bu savaş Azərbaycan və Türkiyəni bir-birinə daha da yaxınlaşdırdı, əlaqələri daha da sarsılmaz etdi.**

Vətən müharibəsinin gedişatında Türkiyə dövləti, onun siyasi-hərbi rəhbərliyi birmənalı şəkildə Azərbaycanın yanında oldu, ölkəmizin haqlı mövqeyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etdilər. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər.

Bu ilin iyun ayından isə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı Şuşa şəhərində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" iki dövlət arasındakı qardaşlığın və strateji tərəfdaşlığın siyasi və mənəvi təcəssümü oldu.

Bütövlükdə, Vətən müharibəsi Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının möhkəm təməllərə söykəndiyini təsdiq etdi. "Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində qələbəmiz, əlbəttə ki, bölgədə yeni bir reallıq yaratdı. Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq. Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır", - deyə Prezident İlham Əliyev bildirib.

### Yanğınsöndürənlərimizin səyi ilə Türkiyədə yanğınların genişlənməsinin qarşısı alınıb

Son günlərdə Türkiyədə baş verən meşə yanğınları zamanı bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığına şahidlik etdi. Belə ki, Azərbaycan dövləti Türkiyənin bir sıra vilayətlərində baş qaldıran meşə yanğınlarına dərhal reaksiya verdi. Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-dan Türkiyədədir. FHN-in ikinci qrupu da artıq Türkiyədə təyinat məntəqəsinə çatıb. Bu qrupa 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxildir. Qrupun üzvlərinin hamısı təcrübəli yanğınsöndürənlərdir. Onların hər biri fərdi yanğınsöndürmə vasitələri ilə tam təmin olunub.

Hazırda FHN-in yanğınsöndürmə qüvvələri yanğınların söndürülməsi əməliyyatlarını peşəkarlıqla davam etdirirlər. Marmaris ərazisində yanğınsöndürənlərimizin səyi ilə bir çox istiqamətlərdə meşə yanğınlarının genişlənməsinin qarşısı alınıb. Bütün bunlar bir daha Azərbaycanın Türkiyə ilə əsl qardaş, etibarlı dost olduğunu əyani şəkildə nümayiş etdirir.

### Rəcəb Tayyib Ərdoğan İlham Əliyevə təşəkkür etdi

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində baş verən meşə yanğınları ilə mübarizədə onlara dəstək verən bütün ölkələrə və təşkilatlara təşəkkürünü bildirib.

*Ardı 3-cü səh.*

# Dirçəliş və yüksəliş salnaməsi

### Prezident İlham Əliyev ən modern texnologiyalarla Qarabağı yenidən qurur - özü də daha möhtəşəm, daha əzəmətli

Azərbaycan postmüharibə dövründə keyfiyyətcə yeni strateji mərhələyə daxil olub. İkinci Qarabağ müharibəsində qazandığımız şanlı qələbədən sonra ölkəmizdə mahiyyət etibarilə tam yeni dövr başlayıb.

Dünya iqtisadiyyatına hələ də ciddi təsir etməkdə olan qlobal pandemiya ilə mübarizə tədbirləri iqtisadiyyatımıza təsirsiz ötüşməsə də, dövlətin qüdrəti imkan verir ki, həm işğaldan azad edilmiş torpaqlarımızda quruculuq işləri, həm pandemiyaya qarşı mübarizə tədbirləri, həm də qarşıdakı dövr üçün yeni mütərəqqi islahatları reallığa çevirmək mümkün olsun.

*Ardı 4-cü səh.*



## 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarında zərər vurulmuş təhsil müəssisələrində təmir-tikinti işlərinin həyata keçirilməsinin təmin edilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2021-ci il*




XXXII Tokio Yay Olimpiya Oyunları

AZERBAIJAN

# Karateçilərimizin rəqibləri məlum oldu

Azərbaycan karateçilərinin "Tokio-2020"də rəqibləri məlum olub. 67 kq çəki dərəcəsində mübarizə aparan Firdovsi Fərzəliyev bu gün A qrupunda Eray Şamdan (Türkiyə), Darxan Assadılov (Qazaxıstan), Əli Elsavi (Misir) və Naoto Saqo (Yaponiya) ilə görüşəcək.



61 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan İrina Zaretska isə avqustun 7-də B qrupunda Məltəm Hocaoöku (Türkiyə), Sofiya Berultseva (Qazaxıstan), Ayumi Uekusa (Yaponiya) və Silvia Semeraro (İtaliya) ilə üz-üzə gələcək.

75 kq çəki dərəcəsində çıxış edən Rafael Ağayev avqustun 6-da B qrupunda Luici Busa (İtaliya), Noa Biç (Almaniya), Çuneari Yahiro (Avstraliya) və Nurkanat Ajiqanovla (Qazaxıstan) ilə qarşılaşacaq.

Qeyd edək ki, qruplarda ilk iki yerin sahibi yarımfinala vəsiqə qazanmaqla yanaşı, bürünc medalı da təmin edəcək.

*Bax: səh. 7*

# Vaksin olunmaqla koronavirusa qalib gələ bilərik

### ÜST pandemiya ilə mübarizənin yollarının yalnız peyvəndlənmədən keçdiyini bir daha təsdiqlədi

**Bir ildən artıqdır ki, dünyanı bürüyən pandemiya (COVID-19) ölkələri hər gün yeni rəqəmlərlə qarşılaşdırır. 2020-ci ilin martından bu günə qədər, yəni ÜST-ün (Ümumdünya Səhiyyə Təşkilatı) koronavirusun yayılmasını pandemiya elan etməsindən ötən vaxt ərzində dünyada virusa yoluxanların sayı 200 milyona çatıb, 4 milyon 200 min nəfər isə vəfat edib.**

Yoluxmanın çoxluğuna görə hələ də ABŞ lider ölkədir. Dünənki məlumata görə, bu ölkədə koronavirusa yoluxanların sayı 34 milyon 264 min nəfəri keçib, 613 min 494 nəfər infeksiyadan dünyasını dəyişib. 28 milyon 254 mindən çox insan isə sağalıb.

Bu xoşagəlməz siyahıda ikinci yeri Hindistan tutur. Hindistanda indiyə qədər 29 milyon 183 min nəfərdə COVID-19 xəstəliyi təsdiqlənib, 359 min 695 nəfər vəfat edib. Yoluxma sayına görə üçüncü yerdə Braziliyadır. Pandemiya müddətində Braziliyada 17 milyon 125 min nəfər virusa yoluxub, onlardan 479 min 791 nəfər ölüb, 15 milyon 596 min nəfər isə sağalıb.

### Azərbaycanda ölüm sayı qonşu ölkələrdən və Avropadan aşağıdır

Azərbaycanda vəziyyət sadalanan ölkələrlə müqayisədə daha yaxşıdır. Bununla belə, koronavirusa yoluxanların sayının artması təlaş doğurmaya bilməz. Yoluxma sayında artım müşahidə edilsə də, ölkədə hər gün peyvənd olunanların sayının artması gələcək üçün nikbin proqnoz verir. Peyvənd olunanların sayı nə qədər artarsa, bir o qədər tez bu virus bəlasından ellikcə qurtula bilərik.

Ölüm sayına görə Azərbaycan qonşu ölkələrdən, hətta Avropadan geri qalır. ÜST pandemiya ilə mübarizənin yollarının yalnız peyvəndlənmədən keçdiyini bir daha təsdiqləyib. Avropa İttifaqı ölkələrinin təxminən 100 milyon sakini koronavirus əleyhinə tam vaksinasiya olunub.

*Ardı 6-cı səh.*

# Əlaqələndirmə Qərargahının iclasında işğaldan azad edilmiş ərazilərdə görülən işlərin icra vəziyyəti müzakirə olunub

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının avqustun 4-də növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzində saxladığı işğaldan azad edilmiş ərazilərin bərpa və yenidənqurma prosesləri ilə əlaqədar verdiyi tapşırıq və göstərişlərin, aparılan işlərin istiqamət və prioritetlərinin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Ümummilli prioritetlərdən biri olan bərpa və yenidənqurma proseslərinin maksimum səmərəli, keyfiyyətli, sürətli, planlı və əlaqələndirilmiş şəkildə icrasının əsas məqsəd olduğunu qeyd edən Qərargahın rəhbəri görülən işlərin dinamik olaraq dəyişən vəziyyətə uyğun icrasının vacibliyini bildirib.

İclasda əhalinin qayıdışı, şəhid ailələri və müharibə iştirakçılarının sosial təminatı, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın inkişafı, şəhərsalma, nəqliyyat-infrastruktur layihələrinin müfəssəl planlaşdırılması və ahəngdar icrası ilə bağlı məsələlər ətraflı şəkildə müzakirə edilib. Qaldırılmış məsələlərlə əlaqədar növbəti addımlar müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

İşğaldan azad edilmiş ərazilərin yeni iqtisadi rayonlar bölgüsü nəzərə alınmaqla, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bərpası və yenidən qurulması işlərinin sürətlə və yüksək peşəkarlıqla aparılması üçün bütün imkanların səfərbər edilməsinin vacibliyi vurğulanıb.

# Azərbaycan və Yaponiyanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Avqustun 4-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Yaponiyanın xarici işlər naziri Motegi Toshimitsu arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli əməkdaşlıq əlaqələrinin cari vəziyyətini və inkişaf perspektivlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov hazırkı çətin vəziyyətdə "Tokio-2020" Yay Olimpiya Oyunlarının yüksək səviyyədə təşkili münasibətilə yapon həmkarını təbrik edib. Tərəflər növbəti il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasını vurğulayaraq bu xüsusda fikir mübadiləsi aparıblar. Nazirlər, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanlarını geniş müzakirə ediblər.

Ceyhun Bayramov yapon həmkarına işğaldan azad olunmuş ərazilərdə postmünaqişə dövründə aparılan bərpa və quruculuq işləri və xarici ölkələrin, o cümlədən yapon investorların bu prosesdə iştirakı imkanları barədə ətraflı məlumat verib.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# YAP-a birləşən siyasi partiyaların bir qrup nümayəndəsinə üzvlük vəsiqələrinin təqdim olunması mərasimi keçirilib





Avqustun 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın VII qurultayında YAP-a birləşən siyasi partiyaların bir qrup nümayəndəsinə üzvlük vəsiqələrinin təqdim olunması mərasimi keçirilib.



YAP-dan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu il martın 5-də keçirilən YAP-ın VII qurultayında mühüm qərarlar qəbul olunub. Bu qərarlar sırasında 6 siyasi partiyanın YAP-a qoşulması da xüsusi vurğulanmalıdır. Onun sözlərinə görə, qurultayın keçirilməsində əsas məqsəd 44 günlük Vətən müharibəsindən sonra ölkəmizdə və regionda yaranmış yeni reallıqlar fonunda YAP-ın qarşısında duran vəzifələrin və yeni dövr üçün fəaliyyət istiqamətlərinin müəyyən edilməsindən ibarət olub.

YAP sədrinin müavini qeyd edib ki, 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması ilə bağlı ötən illər ərzində dövlətimiz Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sistemli iş aparıb: "Məlumdur ki, bu dövrdə Ermənistan və onun havadarları, erməni diasporu, lobbisi Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq üçün kampaniyalar aparıblar. Bu informasiya müharibəsində ölkəmiz tərəfindən Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində böyük işlər görülüb. İqtisadiyyatımızın bir neçə dəfə artması, xüsusilə güclü ordunun yaradılması, Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi və ölkəmizin etibarlı tərəfdaş kimi qəbul olunması, tolerantlıq məkanı kimi özünü təsdiqləməsi bizi Qələbəyə doğru aparan mühüm amillərdir. Eləcə də Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hücum diplomatiyası nəticəsində nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi haqqında sənədlər qəbul olundu ki, bu sənədlər öz gücümüzə torpaqlarımızı işğaldan azad etmək üçün hüquqi baza rolunu oynadı".

Tahir Budaqov deyib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi şərtləndirən əsas amillərdən biri xalq-iqtidar birliyi və vətəndaş həmrəyliyidir. Müharibə başlayan gün ölkədə fəaliyyət göstərən siyasi partiyaların birgə bəyanat verərək Ali Baş Komandana və ordumuza dəstək nümayiş etdirməsi bunu bir daha təsdiqləyir. Eyni zamanda, 6 siyasi partiyanın YAP-a qoşulması da Azərbaycanda milli həmrəyliyin növbəti təcəssümüdür.

Qarşımızda böyük vəzifələrin dayandığını deyən YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, bu vəzifələrin yerinə yetirilməsi üçün daha da güclü olmalıyıq. Bu baxımdan, Yeni Azərbaycan Partiyası üçün də yeni prioritetlər mövcuddur. Partiyanın hazırlanan yeni proqramında da bu prioritetlər geniş şəkildə öz əksini tapacaq. Prioritetlər sırasında Azərbaycana dost olan ölkələrin siyasi partiyaları ilə əməkdaşlığın daha da genişləndirilməsi məsələsi də xüsusi yer tutur. Buna nümunə kimi YAP və AK Parti arasında imzalanmış əməkdaşlığa dair niyyət protokolunu və hər iki partiyanın nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini vurğulamaq yerinə düşər.

Tahir Budaqov YAP-ın sıralarına qoşulmuş 6 siyasi partiyanın nümayəndələrinin də partiyamızın həyatında fəal iştirak edəcəyinə inamını ifadə edib.

Tədbir iştirakçılarından Azərbaycan Yurddaş Partiyasının sabiq sədri Gülayə Səfərova, Azərbaycan Kəndli Partiyasının sabiq sədri Məmməd Məmmədov və Azərbaycan Demokrat Sahibkarlar Partiyasının sabiq sədri Qasım Qasımov çıxış edərək Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevə təşəkkür edib və bundan sonra YAP üzvləri kimi üzərlərinə düşən vəzifələri layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

Sonra tədbir iştirakçılarına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

# Müdafiə naziri azad olunmuş ərazilərdə bir neçə yeni hərbi hissədə olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə tikinti-quruculuq işləri davam etdirilir.**



Müdafiə naziri general-polkovnik Zakir Həsənov azad olunmuş ərazilərdə yerləşən yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış bir neçə hərbi hissədə olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir şəxsi heyətin döyüş hazırlığının səviyyəsini yoxlayıb, döyüş qabiliyyətinin artırılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

General-polkovnik Zakir Həsənova məruzə olunub ki, komplekslər müasir avadanlıq, mebel və inventarlarla təchiz edilib. Hərbi hissələrdə silah otağı, yataqxana, yeməkxana, mətbəx, tibb məntəqəsi, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı və ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar mövcuddur.



Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirən müdafiə naziri xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunu qiymətli hədiyyələrlə təltif edib.

Nazir azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrin şəxsi heyətinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması barədə müvafiq tapşırıqlar verib.

Sonda general-polkovnik Zakir Həsənov şəxsi heyətlə birgə nahar edib.







# Müdafiə Nazirliyi Azərbaycan Ordusuna aid məlumatların təhrif olunmuş şəkildə yayılmasına münasibət bildirib

Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Azərbaycan Ordusunda ştat dəyişikliyi, şəxsi heyətin rotasiyası, kadr islahatları və orduya aid digər məlumatların təhrif olunmuş şəkildə və Müdafiə Nazirliyinin rəsmi məlumatına istinad edilmədən yayılması ciddi təəssüf və narahatlıq doğurur.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin "Facebook"dakı rəsmi səhifəsində yerləşdirilmiş məlumatda bildirilib.

Məlumatda qeyd olunub ki, ümumiyyətlə, şəxsi heyətin, xüsusilə yuxarı çinli zabit heyətinin vəzifə yerdəyişməsi kimi məlumatlar xidməti xarakter daşıyır və hərbi-dövlət sirri sayıla bilər.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində zəfər qazanmış qalib ordu haqqında Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad olunmadan bu cür məlumatların yayılması və ya sosial şəbəkələrdə əsassız müzakirə obyektinə çevrilməsi ordumuzun gündəlik fəaliyyətinin təşkilinə mənfi təsir göstərir və əməliyyat şəraitində olan hərbi qulluqçularımızın həyatını təhlükə altına qoya bilər. Bu kimi hallar, eyni zamanda, Ermənistan xüsusi xidmət orqanlarının məlumatlandırılmasına, onların ordumuza qarşı apardığı dezinformasiya və "fakenews" əməliyyatlarının asanlaşdırılmasına xidmət edir.

"Peşəkar, məsuliyyətli və vətənpərvər Azərbaycan mediasının daim və Vətən müharibəsi dövründə xüsusilə ordumuza göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. Bununla belə, bəzi media nümayəndələrini və sosial şəbəkə istifadəçilərini Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə xalq-ordu birliyinə xələl gətirə biləcək informasiya təxribatlarının və məlumatlarının tirajlanmasının qarşısının alınmasında fəal olmağa və vətəndaş məsuliyyəti prinsipindən çıxış edərək orduya dəstək olmağa çağırırıq", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# *Müdafiə Nazirliyi:* "Ordumuza məxsus PUA-nın guya Ermənistan ərazisinə keçməsinə dair məlumat qarşı tərəfin növbəti yalanıdır"

Azərbaycan Ordusuna məxsus pilotsuz uçuş aparatının (PUA) guya Ermənistan ərazisinə keçməsinin qarşısının alınması barədə yayılan məlumat qarşı tərəfin növbəti yalanıdır və dezinformasiya xarakteri daşıyır.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

"Həmin istiqamətdə pilotsuz uçuş aparatları havaya qaldırılmayıb və istifadə olunmayıb. Ermənistan tərəfi belə məlumatlar yaymaqla mövqelərimizi atəşə tutmaq kimi təxribatlarını ört-basdır etməyə və ictimaiyyəti aldatmağa çalışır.

Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır", - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilib.

# *Müdafiə Nazirliyi:* "Dövlət sərhədi istiqamətində mövqelərimiz atəşə tutulub"

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 4-ü saat 14:50-də Basarkeçər rayonunun Əzizli kəndi ərazisində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

# Birliyin və dostluğun təcəssümü

## İlham ƏLİYEV: "Bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq"

Əvvəli 1-ci səh.

Bu çətin dövrü ən qısa zamanda geridə qoyacaqlarını deyən Rəcəb Tayyib Ərdoğan söyləyib: "İlk andan etibarən göstərdikləri dəstəyə görə xüsusilə Azərbaycan Prezidentinə, əziz dostum İlham Əliyevə, Rusiya Prezidenti Vladimir Putinə və İspaniyanın Baş naziri Pedro Sançesə ölkəm adından təşəkkürümü bildirirəm. Güclü həmrəyliyinə görə qonşumuz İran Prezidenti İbrahim Rəisiyə, Qətər Əmiri Şeyx Təmimə, Xorvatiya Prezidenti Zoran Milanoviçə və Ukrayna Prezidenti Vladimir Zelenskiyə təşəkkürümü bildirirəm".

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində qardaş Türkiyədə baş verən yanğınlar nəticəsində həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verib. Paylaşımda deyilir: "Türkiyə regionlarında baş vermiş dəhşətli yanğınların nəticələri barədə xəbərləri dərin kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını arzulayıram. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!"



### Bu qardaşlıq səmimi, sarsılmaz və əbədidir

Azərbaycan həmişə, ən çətin anlarda Türkiyənin yanında olmuş, ona öz səmimi və əməli dəstəyini ifadə etmişdir. Bu yerdə 2016-cı ildə Türkiyədə baş vermiş terror aktları zamanı Azərbaycanın qardaş dövlətə dəstəyini qeyd etmək yerinə düşər. Məlum olduğu kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirak etməsi üçün ölkəmizə səfəri 2016-cı ilin həm fevral, həm də mart aylarında alınmamışdı. Fevral ayında təxirə salınan Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası martın 15-də Bakıda keçirilməliydi. Lakin Türkiyə Prezidenti törədilmiş terror səbəbindən gələ bilmədiyindən Azərbaycan Prezidenti İlham Əliyev əsl qardaşlıq və dostluq nümunəsini ortaya qoyaraq özü Ankaraya səfər etdi. Prezident İlham Əliyev bu qərarı ilə Azərbaycan dövlətinin yaxşı günlərdə də, ağır günlərdə də Türkiyə dövləti ilə birlikdə olduğunu nümayiş etdirdi.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasındakı nitqinə Türkiyənin yanında olmasına və göstərdiyi həmrəyliyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü ifadə etməklə başlamışdı.

Azərbaycanlı yanğınsöndürənlərin Türkiyənin çətin günlərində köməyə gəlməsi bütün qardaş ölkə ictimaiyyətinin qəlbini fəth edib. Türkiyədə böyükdən kiçiyə hər kəs yanğınsöndürənlərimizin qəhrəmanlığından danışır, Prezident İlham Əliyev başda olmaqla xalqımıza təşəkkür edirlər. Beləliklə, Azərbaycan-Türkiyə qardaşlığı Türkiyədə baş verən meşə yanğınları zamanı növbəti dəfə də özünü yaxından göstərdi. Bir daha təsdiq olundu ki, bu qardaşlıq səmimi, sarsılmaz və əbədidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsində Türkiyənin Azərbaycandakı səfiri ilə görüş keçirilib

Avqustun 4-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən məlumat verilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Cahit Bağçını qardaş Türkiyənin ölkəmizdə yeni səfiri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. Sədr Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin daha da genişləndirilməsinə xidmət edəcək şərəfli və məsuliyyətli vəzifəsində səfirə uğurlar arzulayıb. Fərhad Abdullayev diplomatın iki qardaş ölkə arasında əlaqələrin daha da inkişafına dəyərli töhfələr verəcəyinə əminliyini bildirib.

Vurğulanıb ki, ölkələrimiz arasında münasibətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində sürətlə inkişaf edir.

Sədr qeyd edib ki, qardaş Türkiyənin müxtəlif bölgələrində iyulun 29-dan başlayan güclü meşə yanğınları və onun törətdiyi fəsadlar barədə xəbər Konstitusiya Məhkəməsinin əməkdaşlarını son dərəcə kədərləndirib. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin əməkdaşlarından ibarət bir neçə qrup və xüsusi texnika Türkiyədə tüğyan edən meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə qardaş ölkəyə yola salınıb. Azərbaycan dövləti və xalqı hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

Türkiyənin səfiri Cahit Bağçı yüksək qonaqpərvərliyə və təbrikə görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edərək, iki ölkə arasındakı qardaşlıq əlaqələrinin inkişafında və genişləndirilməsində diplomatik missiyaların böyük rolundan danışıb. Səfir Türkiyənin cənub vilayətlərində baş verən və genişmiqyaslı yanğınların söndürülməsində qardaş Azərbaycanın dəstəyinə görə təşəkkürünü bildirib. Diplomat qeyd edib ki, dövlətlərimiz və xalqlarımız hər zaman bir-birinin yanındadır.

Görüşdə qeyd olunub ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi uğrunda 44 günlük Vətən müharibəsində tarixi qələbə qazandı. Azərbaycanın haqq savaşında qardaş dəstəyi göstərmiş Türkiyə dövləti bir daha sübut etdi ki, o, beynəlxalq hüquq normalarının və beynəlxalq müstəvidə haqq-ədalətin müdafiəsində duran dövlətdir. Azərbaycan Respublikasının əzəli torpaqlarının Ermənistanın işğalından azad edilməsi uğrunda apardığı mübarizədə Türkiyə Cümhuriyyətinin dövlətimizin və xalqımızın haqq işini müdafiə etməsi, ədalətin qələbə çalmasına siyasi dəstək verməsi əsl qardaşlıq nümunəsidir.

Diplomat xüsusilə qeyd edib ki, 44 günlük Vətən müharibəsi zamanı Türkiyə xalqı Azərbaycan xalqının yanında oldu. Biz hamımız Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarının sarsılmaz həqiqət olduğuna bir daha şahidlik etdik.

Səfir ölkələrimiz arasında yüksəksəviyyəli əməkdaşlıq və qardaşlıq əsasında qurulan münasibətlərin sarsılmaz olduğunu qeyd edərək, bu əlaqələrin bundan sonra da möhkəmlənməsinə töhfə verməyə çalışacağını bildirib. Diplomat işğaldan azad edilmiş torpaqlara səfərləri zamanı Ermənistanın 30 illik işğal siyasətinin acı nəticələrinin canlı şahidi olmasından söhbət açıb.

Vurğulanıb ki, cari il iyunun 15-də ölkəmiz üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamənin imzalanması tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, cari il iyulun 27-də Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrləri arasında keçirilmiş birinci üçtərəfli görüş nəticəsində imzalanan Bakı Bəyannaməsi ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da gücləndirilməsinin göstəricisidir.

Görüşün sonunda bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu əbədidir və hərtərəfli əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcək.

# Fövqəladə hallar nazirinin müavini Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş Türkiyəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələrinin koordinasiyalı idarəetməsinin təşkili məqsədilə hazırda qardaş ölkədə olan nazir müavini general-leytenant Etibar Mirzəyev Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli ilə görüşüb.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə E.Mirzəyev Türkiyədə baş verən meşə yanğınları ilə mübarizə aparmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə FHN-in yanğın, xilasetmə, aviasiya və tibb qüvvələrinin qardaş ölkəyə gəldiyini qeyd edib. Türkiyəyə gəlməsində məqsədinin yardıma gəlmiş FHN-in qüvvələrinin koordinasiyalı idarəetməsinin təşkili olduğunu vurğulayan E.Mirzəyev qüvvələrin tərkibi və imkanları, həmçinin yanğınsöndürmə istiqamətindəki fəaliyyətləri barədə ətraflı məlumat verib.

Türkiyəli nazir Bekir Pakdemirli ölkəsində baş verən meşə yanğınlarının miqyası və yanğınla mübarizə tədbirləri haqqında danışıb. B.Pakdemirli həmçinin meşə yanğınlarının söndürülməsində göstərilən dəstəyə və köməyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və qardaş Azərbaycan xalqına təşəkkür edib.

*Türkiyənin sabiq deputatı:*

# "Azərbaycanlı yanğınsöndürənlər alovlara qarşı böyük fədakarlıq göstərirlər"

**Azərbaycanlı yanğınsöndürənlərin dar günümüzdə köməyə gəlməsi bütün Türkiyənin qəlbini fəth edib. Başda Prezident İlham Əliyev olmaqla bütün azərbaycanlı qardaşlarımıza səmimi-qəlbdən təşəkkür edirik.**

Türkiyə meşələrini birgə yanğınlardan xilas etmək cəhdlərimiz bir daha "Bir millət, iki dövlət",- olmağımızın nümayişidir. Azərbaycanlı yanğınsöndürənlər alovlara qarşı böyük fədakarlıq göstərirlər. Bu qəhrəmanlıqdan qürur duyuruq.

Bunları Türkiyə Meşəçilik İdarəsinin keçmiş baş direktoru, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı Osman Kahveci AZƏRTAC-ın hadisə yerində olan xüsusi müxbirinə deyib.

Hazırda Türkiyə də daxil olmaqla dünyanın fərqli ölkələrində meşə yanğınlarının sürətlə artmasının səbəblərini, qlobal istiləşmə, kəskin rütubət və dəyişən istiqamətli külək olduğunu diqqətə çatdıran Osman Kahveci vurğulayıb ki, meşə yanğınlarına qarşı kəskin mübarizə aparılmasaydı, ağır faciə və fəsadlar yaşanardı. Əminəm ki, ən qısa zamanda "yaşıl vətən"in düşməni dəf ediləcək.



Xatırladaq ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə əməkdaşlarından, hava nəqliyyatı və texnikadan ibarət qüvvələr Türkiyədəki meşə yanğınlarına qarşı fəal mücadilədə iştirak edirlər.

# Türkiyədə meşə yanğınları, Qarabağda məhv edilən meşələr və tarixin dərsləri haqqında...

Qarabağ bərpa edilərək əvvəlkindən daha da gözəl və yaşıl olmalıdır! Bu, bizim mənəvi borcumuzdur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev deyib. O vurğulayıb ki, avqustun 2-də Böyük Britaniyanın "The Guardian" nəşri Türkiyə hakimiyyətinin dünya ictimaiyyətini on minlərlə hektar ərazini məhv edən dəhşətli yanğınlara qarşı mübarizədə onlara yardım göstərməyə çağırması barədə xəbər dərc edib. Avqustun 3-də isə Türkiyənin "Daily Sabah" nəşri meşələri bürüyən alovla mübarizədə dost və müttəfiqlərinin Türkiyəyə kömək etdiklərinə dair xəbər yayıb. Artıq dəstək göstərən ölkələr arasında qardaş Azərbaycan, Rusiya, Ukrayna, İran, Xorvatiya və İspaniya var. KİV-in məlumatına görə, bu siyahıda Avropa İttifaqı yoxdur. Fransa və Yunanıstan isə yardım göstərməkdən imtina ediblər. Halbuki "Köhnə dünya" və Yaxın Şərq arasında bufer rolunu oynayan və müharibənin dəhşətlərindən qaçan qaçqın axınının qarşısını alaraq, uzun illər Avropa İttifaqına böyük dəstək göstərən məhz Türkiyə olub. "Sivil Qərbin" bu cür münasibəti kimisə təəccübləndirə bilər, amma məni yox. Bundan bir neçə həftə əvvəl Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsselin Ermənistana 2,6 milyard avro məbləğində maliyyə dəstəyi göstərməyə hazır olduğunu təsdiqləyib. Eyni zamanda KİV-in məlumatına görə, yaxın 5 il ərzində Avropa İttifaqı Azərbaycana 150 milyon avroya yaxın vəsait ayırmağı planlaşdırır. Yəni, təxminən 17 dəfə az.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, biz bu dünyada, ilk növbədə, özümüzə arxalanmalıyıq. Bu gün Türkiyədə baş verən yanğınları laqeydcəsinə izləyənlər, on illərlə Qarabağın ekologiyasını məhv etmiş bir ölkəyə maliyyə dəstəyi üçün milyardlarla avro ayıranlar, çətin ki, işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı təşəbbüslərimizi dəstəkləsinlər. Mən artıq yazmışdım ki, təkcə 2014-2018-ci illərdə Qarabağda bütün Ermənistandakından 2,3 dəfə çox ağac qırılıb. İşğal illərində ermənilər Qarabağın meşə örtüyünün təxminən 20 faizini məhv ediblər. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, məhv edilmiş ağaclar arasında qoz, xurma, palıd və Eldar şamı kimi qiymətli ağac növləri də var. Ancaq işğal illərində Azərbaycanın meşə örtüyünün sistemli şəkildə məhv edilməsi ermənilərə azlıq edib. 44 günlük müharibə zamanı Qarabağın ekologiyasına daha böyük zərbə vuruldu - ermənilərin fosfor bombalarından istifadə etməsi nəticəsində baş verən yanğınlar meşə massivlərinin geniş ərazisini əhatə etdi. Hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandıqdan sonra isə ermənilər möhlət hüququndan istifadə edərək Kəlbəcərdə tələm-tələsik meşələri qırmağa və evləri yandırmağa başladılar, təki bütün bunlar həmin torpağın əsl sahibi olan azərbaycanlılara qalmasın. 20 ildən artıq müddət ərzində dünya ictimaiyyəti (təbii ki, ən yaxın dostlarımız istisna olmaqla) nə edirdi? Bəli, erməni işğalçı qüvvələrinin Qarabağın təbii ehtiyatlarını talan etməsini, meşələri qırmasını, narkotrafikinqlə məşğul olmasını, su terroru törətməsini, cəbhəyanı bölgələri atəşə tutmasını, ərazilərimizə külli miqdarda mina basdırmasını və başqa qeyri-qanuni fəaliyyətlərdən çəkinməməsini dinməz-söyləməz izləyirdi. Biz işğalın nəticələrinin aradan qaldırılmasında həmin "səssiz müşahidəçilərin" dəstəyinə ümid bəsləyə bilərikmi? Mən buna şübhə edirəm. Deməli, biz, ilk növbədə, özümüzə arxalanmalıyıq. Şükürlər olsun ki, dövlətimizin xarici donorlardan kömək gözləmədən bu işə başlamaq üçün kifayət qədər resursları var.




Rəhman Hacıyev, eyni zamanda, bildirib ki, erməni işğalçıların Qarabağa vurduğu zərər həddindən artıq böyükdür. Söhbət onlarla yaşayış məntəqəsindən - yer üzündən silinmiş kənd, qəsəbə və şəhərlərdən gedir. Söhbət bu torpaqları yaşayış və qayıtmağımız üçün tamamilə yararsız hala salmaq məqsədilə dağıdılmış və ya tamamilə məhv edilmiş minlərlə evdən və tarixi abidələrdən gedir. Söhbət kəsilərək Ermənistana aparılmış yüz minlərlə gözəl ağacdan, o cümlədən endemik ağaclardan gedir. Söhbət faydalı qazıntıların amansızcasına hasil edilməsi nəticəsində yaranan zəhərli maddələrin atılması üçün istifadə olunan minlərlə hektar ərazidən gedir. Bir sözlə, söhbət İkinci Dünya müharibəsi zamanı nasist işğalının fəsadları ilə müqayisə edilə biləcək zərərdən gedir. Mənə tez-tez sual verirlər: "Qarabağa nə vaxt qayıda biləcəyik?" Mən dəqiq tarixi bilmirəm, amma bir şeydən tam əminəm ki, əgər biz Qarabağın bərpası prosesini sürətləndirmək istəyiriksə, bu müqəddəs missiyada dövlətimizi dəstəkləməliyik. Bunun üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış müvafiq platformamız var - Qarabağ Dirçəliş Fondu. Fonda ianə etməklə hər birimiz Qarabağın bərpasına öz töhfəmizi verə bilərik. Bu, niyə təhlükəsizdir? Bunun bir neçə səbəbi var. Onlardan, sadəcə, bir neçəsi aşağıdakılardır:

- fond hər il dövlət başçısına öz fəaliyyəti və bütün xərcləri ilə bağlı hesabat verəcək;
- fond həmçinin hər il ictimaiyyət qarşısında hesabat verəcək, görülən işlər və xərclənmiş vəsaitlər barədə ictimaiyyəti məlumatlandıracaq;
- fond hər il beynəlxalq auditor şirkəti tərəfindən yoxlanılacaq və auditorların rəyini dərc edəcək;
- fond yığılan ianələrin bir qəpiyini də öz inzibati xərcləri (əməkhaqqı, ofis icarəsi və sair) üçün xərcləmir və xərcləməyəcək.

Bu, bizim Müşahidə Şuramız tərəfindən təsdiq edilmiş prinsipial mövqeyimizdir (bu barədə tezliklə daha ətraflı yazacağam).

Ona görə də bu yazını yekunlaşdırarkən yaşadığı ölkədən asılı olmayaraq bütün qardaş və bacılarımıza müraciət etmək istərdim: Əgər siz Qarabağın, onun gözəl, sıx meşələrinin, tarixi abidələrinin, ev, məktəb və xəstəxanalarının bərpası prosesini sürətləndirmək istəyirsinizsə, bu prosesə öz töhfənizi verərək dövlətin səylərini dəstəkləyin. Bunun üçün cəmi bir neçə kliklə Qarabağ Dirçəliş Fonduna ianə köçürmək kifayətdir. Hər qəpik dəyərlidir!

**PS:** Erməni işğalçıların Qarabağa vurduqları ziyan barədə ətraflı məlumatı "Karabakh.Center" saytında (üç dildə) oxuya bilərsiniz: Cinayət. Преступная деятельность. Crime.

Ermənilər tərəfindən dağıdılmış minlərlə ev, abidə, qəbiristanlıq və görməli yerin fotoşəkillərinə "Karabakh.Center" saytında (üç dildə) baxa bilərsiniz: Urbisid. Урбицид.

Urbicide. https://www.youtube.com/watch?v=-nSVgxTQV_V4&feature=emb_title

# Dirçəliş və yüksəliş salnaməsi

## Prezident İlham Əliyev ən modern texnologiyalarla Qarabağı yenidən qurur - özü də daha möhtəşəm, daha əzəmətli

Əvvəli 1-ci səh.

Artıq Qarabağ münaqişəsi tarixə qovuşub və qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağı yenidən cənnətməkana çevirməkdir.



### Yeni strateji mərhələ

XXI əsrin innovativ müharibəsini apararaq torpaqlarımızı düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün yeni minilliyin texnologiyaları ilə Qarabağı yenidən qurur. Özü də daha möhtəşəm, daha əzəmətli. İlham Əliyevin "dəmir yumruq" əməliyyatı ilə işğaldan azad edilmiş torpaqlarımız hazırda dəmir iradə ilə müasir formada bərpa olunur.

Azərbaycan dövləti böyük tikinti-quruculuq işlərinin geniş miqyası ilə dünyaya göstərir ki, vandal ermənilərin 30 ildə darmadağın etdikləri Qarabağı qısa müddətdə yenidən dirçəltmək gücündədir. Özü də kimdənsə maliyyə dəstəyi almadan.

Hər zaman düşünülmüş addımlar atan, qətiyyətli qərarlar qəbul edən Prezident İlham Əliyev məhz bu dövr üçün qısamüddətli, ortamüddətli, uzunmüddətli hədəflər müəyyən edib. İndi həyata keçirilən bütün proseslər bu hədəflərin uğurla reallaşmasına yönəlib.

Bütün bu işlər dövlət başçısının "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strategiyasında da aydın şəkildə öz əksini tapıb. Belə ki, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılacaq beş milli prioritet müəyyənləşdirilib. Bu prioritetlər, əlbəttə ki, Vətən müharibəsində ərazi bütövlüyünü təmin edən Azərbaycanın gələcək yüksəlişinə hədəflənib.

Bu gün Qarabağda böyük tikinti bumu yaşanır. Tezliklə azad olunmuş ərazilərimiz "yaşıl enerji" zonasına çevriləcək. Çünki işğaldan azad edilmiş ərazilərdə yüksək texnologiyaların və "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasının tətbiqi Azərbaycana dünyada misli görünməmiş dəyişikliklər həyata keçirməyə imkan verəcək.

Həmçinin tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına yönəldilməsi dayanıqlı inkişafa böyük təkan verəcək. Bu çərçivədə bölgədə təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi Azərbaycanın bölgədəki rolunu daha da gücləndirəcək.

### İlk baş plan - Ağdamda qoyulan təməl daşı

Ötən il tarixi zəfər yaşadıq və 30 illik Qarabağ həsrətimizə son qoyuldu. Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi, Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində ərazilərimizin işğaldan azad edilməsi Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi. Azərbaycan Ordusu savaş zamanı geri qaytarılan ərazilərimizlə yanaşı, heç bir itki, şəhid vermədən, qan tökülmədən Ağdam, Laçın və Kəlbəcərə də daxil oldu. 44 günlük Vətən müharibəsindən sonra Ali Baş Komandan ön cəbhədə əldə olunan qələbəni diplomatik masada da rəsmiləşdirdi.

Noyabrın 20-də Ağdamın azad edilməsindən cəmi 3 gün sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam şəhərinə səfər etmələri ictimaiyyət və ağdamlılar tərəfindən yüksək sevinc və coşqu ilə qarşılandı. Bu dəfə Müzəffər Ali Baş Komandan Ağdama Qalib Sərkərdə kimi gəlmişdi və xalqa müraciətində də bəyan etdi ki, Ağdam rayonu tezliklə əvvəlki şöhrətini yenidən özünə qaytaracaq, Azərbaycanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

Bu səfərin səhəri günü, noyabrın 24-də Prezident işğaldan azad edilmiş ərazilərdə başlanacaq tikinti-quruculuq işləri və "Böyük Qayıdış" konsepsiyasına əsasən, həyata keçiriləcək işlərin tərkib hissəsi olaraq 2 sərəncam imzaladı. İlk sərəncama əsasən, noyabrın 10-da imzalanan Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə işğaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradıldı.

İkinci sənədə əsasən, ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Prezidentin Ehtiyat Fondundan ilkin olaraq beş milyon manat vəsait ayrıldı. Bu, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçiriləcək ilk layihələrdən biri oldu.

Onu da xatırladaq ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva müharibədən öncə də hər zaman Ağdamın sosial-iqtisadi inkişafını diqqətdə saxlayıblar. Prezidentin göstəriş və tapşırıqlarına əsasən, rayonun işğal altında olmayan 44 yaşayış məntəqəsində son illərdə müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri görülüb, Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Mərkəzi Rayon Xəstəxanası və digər sosialyönümlü obyektlər tikilib, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunub, xalçaçılıq müəssisəsi yaradılıb. 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 12 tibb və 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilib, qaz, elektrik, içməli su xətləri çəkilib, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılıb, digər mühüm layihələr həyata keçirilib.

Prezidentin 24 noyabr tarixli sərəncamı bu istiqamətdə aparılan işlərin davam etdirilməsi, işğaldan azad olunmuş ərazilərin bərpası və Ağdam rayonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədi ilə imzalanıb.

Elə Prezidentin işğaldan azad edilmiş ərazilərlə bağlı təsdiqlədiyi ilk Baş plan da Ağdam şəhəri ilə bağlı oldu. Mayın 28-də - Respublika Günündə Ağdamda tarixi hadisə baş verdi. 27 ildən sonra düşmən tapdağından qurtulmuş qədim Ağdam şəhərinin yerində yeni, möhtəşəm şəhərin təməlqoyma mərasimi keçirildi. Bu təməl daşı, əslində, Azərbaycan dövlətçilik tarixinin əbədi divarlarına qoyulan yeni bir qat, yeni bir mərhələnin başlanğıcı idi. Bərpa gününün, təməlqoyma mərasiminin 28 May - Respublika Günü keçirilməsi təsadüfi deyildi, tarixi qələbəmizin müstəqilliyimizlə bağlılığının təcəssümü idi.

### Qarabağa, Şərqi Zəngəzura aparan yollar, böyük tikinti bumu...

Düşməndən təmizlənmiş yurd yerlərimizə ilk növbədə abad yollar çəkilməyə başlandı. Hazırda işğaldan azad olunmuş ərazilərimizdə inşa olunan mühüm yol infrastrukturlarına nəzər yetirək: "Zəfər" yolu, Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu, Zəngilan-Qubadlı-Laçın yolu, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları, Bərdə-Ağdam yolu. Həmçinin Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı istiqamətindən və Kəlbəcər, Laçın rayonlarının ərazilərindən hərbi əhəmiyyətli yollar çəkilir.

İyulun 28-də Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayaraq 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən 10 milyon manat ayırıb.

Füzuli, Zəngilan və Laçında beynəlxalq aeroportlar inşa edilir. Füzulinin, Cəbrayılın Baş planlarının ilkin versiyası Prezidentə təqdim edilib. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin Baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin Baş planının hazırlanması prosesinə artıq başlanılıb. Qısa müddətdə Qarabağda müasir şəhərsalmanın ən son nailiyyətlərini özündə birləşdirən şəhərlər, qəsəbələr, kəndlər salınacaq.

Hazırda tikinti prosesi sürətlə davam edən Ağdam şəhərinin Baş planına əsasən, şəhər iki dəfə böyüdüləcək. Şəhərin əhalisinin 100 min nəfər olması nəzərdə tutulur. Bu da Ağdama Qarabağın ən böyük, Azərbaycanın isə 6-cı böyük şəhəri statusunu qazandıracaq.

Prezident İlham Əliyevin söylədiyi kimi, bu ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm də Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatı qurulacaq. Günəş elektrik stansiyası, yeni ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları tikiləcək.

Prezident İlham Əliyevin Qarabağda reallaşdırdığı smart layihələr 4-cü sənaye inqilabının tərkib hissəsi sayılır.

Onu da vurğulayaq ki, Azərbaycan bütün bu işləri heç kimdən yardım almadan, öz hesabına həyata keçirir. Xarici şirkətlər bu işlərə cəlb edilib, amma podratçı qismində. Bütün vəsait Azərbaycanın dövlət büdcəsindən xərclənir.

### Zəngəzur dəhlizi mütləq açılmalıdır

Yaşadığımız postmüharibə dövründə kifayət qədər çağırışlar mövcuddur. Azərbaycan regionda postmüharibə dövrünün gündəliyinin böyük qismini müəyyən edib. Prezident İlham Əliyevin hücum siyasəti, vaxtında atılmış addımlar sayəsində ölkəmiz müharibədən sonrakı vəziyyətə də tam nəzarət edir və bütün işlər uğurla aparılır. Bununla yanaşı, Ermənistanın özündə belə siyasi gündəliyin müəyyən hissəsi məhz Azərbaycan tərəfindən formalaşdırılır. Bu gün nəinki regionda, hətta artıq dünya miqyasında ən çox danışılan mövzulardan biri də Zəngəzur dəhlizinin açılması məsələsidir.

Prezident İlham Əliyev konkret olaraq bəyan edib ki, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır və Zəngəzur dəhlizi mütləq açılmalıdır. Ermənistan bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşıdır.



Əlbəttə ki, bu dəhlizin açılması Ermənistan da daxil olmaqla bölgənin inkişafına, region xalqlarının maraqlarına xidmət edəcək. Həmçinin yeni regional əməkdaşlıq formatı üçün əlverişli zəmin yaradacaq. Ona görə də bu dəhlizin və digər kommunikasiyaların açılması Ermənistandakı hazırkı ağır və acınacaqlı vəziyyətdən yeganə çıxış yoludur. Təəssüf ki, Ermənistan rəhbərliyi və bəzi qüvvələr hələ də bunu dərk etmək istəmirlər.

Təbii ki, müharibədən sonra sülh danışıqlarının başlanması, kommunikasiyaların açılması gözlənilən idi. Azərbaycan dəfələrlə ən yüksək səviyyədə buna hazır olduğunu bəyan etmişdi. Lakin hələ də yeni reallıqlarla barışmaqda çətinlik çəkən Ermənistan müxtəlif bəhanələrlə bu prosesdən yayınır. Ancaq yaxşı anlayır ki, tarixi zərurətə çevrilən bu yeni reallığı və onun şərtlərini qəbul etmədən uzun illər ərzində düşdüyü bataqlıqdan heç vaxt çıxa bilməyəcək.

Zəngəzur dəhlizinin açılması, əlbəttə ki, tarixi zərurətdir. Yəni bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla İrana, Rusiyaya və bütün dünyaya çıxa, beləliklə, özləri özlərini saldıqları blokadadan xilas edə biləcəklər.

Görünən odur ki, Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividendlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yaradacaq. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Hər birimiz tarixi günlər yaşadıq və yaşamaqdayıq. Prezidentin söylədiyi kimi, çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Tezliklə Qarabağ yenidən cənnətməkana çevriləndə daha əzəmətli, qüdrətli Azərbaycan vətəndaşları kimi qürur hissi keçirəcəyik və bu günləri bizə yaşadan Prezidentimizə alqış edəcəyik. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyevin adı isə tariximizə müdrik lider, böyük strateq, qalib sərkərdə kimi qızıl hərflərlə yazılacaq. Çünki tarix göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində xalqın maraqlarını ən ali məqsəd kimi görən, bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi qətiyyətli liderdir.

***Vasif HƏSƏNOV,***
***YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini***

# "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə zərərçəkmiş kimi tanınan məcburi köçkünlər Laçın rayonuna səfər ediblər





İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ildə qəbul etdiyi qərara əsasən, zərərçəkmiş kimi tanınan məcburi köçkünlər avqustun 3-də doğma Laçın rayonuna səfər ediblər.



AZƏRTAC xəbər verir ki, səfər zamanı həmin məcburi köçkünləri Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov müşayiət edib.

Qeyd edək ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Azərbaycan Respublikasının vətəndaşları Elxan Çıraqov, Adışirin Çıraqov, Ramiz Cəbrayılov, Akif Həsənov, Fəxrəddin Paşayev və Qaraca Cəbrayılovun 2005-ci il 6 aprel tarixli iddiaları üzrə 2015-ci il iyunun 16-da qəbul etdiyi qərarda "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın 8-ci, 13-cü və 14-cü maddələrinin və Konvensiyaya dair 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğu əksini tapıb. Lakin qərarın qəbulundan altı ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan üzərinə qoyulan öhdəlikləri yerinə yetirmir, zərərçəkmiş kimi tanınan altı nəfər Azərbaycan vətəndaşına vurduğu mənəvi və maddi ziyana görə təzminat ödəmir. Həmçinin qərara əsasən, cavabdeh dövlət azərbaycanlı qaçqınların və məcburi köçkünlərin hüquqlarının bərpası üçün xüsusi mexanizm yaratmalı olsa da, bu məsələ də Ermənistan tərəfindən icra olunmamaqdadır.

Presedent xarakteri daşıyan bu aparıcı iş üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı beynəlxalq məhkəmə orqanının azərbaycanlı məcburi köçkünlərin işğal olunmuş ərazilərdəki mülkiyyət hüququnun pozulmasını tanıyan, işğal faktını təsdiq edən ilk və hələ ki yeganə sənədidir.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov bununla bağlı AZƏRTAC-a müsahibəsində deyib: "Bu gün biz Azərbaycanın Vətən müharibəsindəki şanlı qələbəsi nəticəsində işğaldan azad edilmiş Laçın rayonuna gəlmişik. Səfərimiz bu rayondan olan məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün işlərə başlanmasının işarəsidir. Məlumdur ki, Avropa Məhkəməsinin qərarında Laçın rayonunun altı sakininin insan hüquqlarının Ermənistan tərəfindən pozulması əksini tapıb. Bu gün birlikdə gəldiyimiz sakinlər həmin qərarda zərərçəkmiş kimi tanınan şəxslər - Çıraqlı, Kamallı və Ağbulaq kəndlərindən olan məcburi köçkünlərdir. Biz həmin şəxslərin doğma evlərinə, daha dəqiq desək, evlərinin qalıqlarına baş çəkməyə gəlmişik. Bununla da Avropa Məhkəməsinin məlum qərarının tərəfimizdən icrası üçün tədbirlərin görülməsi zəruriliyini göstərmək istəyirik".

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin məlum qərarının tələblərinin Ermənistan tərəfindən hələ də icra olunmadığını xüsusi qeyd edən Çingiz Əsgərov bildirib: "Həmin qərarla Ermənistan dövlətinin üzərinə bir sıra öhdəliklər qoyulub. Qərara əsasən, Ermənistan həmin sakinlərə Avropa Məhkəməsi tərəfindən müəyyən edilən təzminatı ödəməlidir. Lakin qərarın qəbulundan altı il keçməsinə baxmayaraq, bu təzminat hələ də ödənilməyib. Bundan əlavə, qərara əsasən, Azərbaycanın bütün məcburi köçkün və qaçqınlarının pozulmuş hüquqlarının bərpası ilə bağlı müraciət etmələri üçün mexanizmin yaradılması barədə də Ermənistan dövləti üzərində öhdəlik müəyyən edilib. Ancaq qərarın qəbulundan ötən müddətdə bu öhdəlik də Ermənistan tərəfindən yerinə yetirilməyib. Biz səfərimizlə göstəririk ki, bu məsələ Azərbaycan dövlətinin diqqətindədir. Bütün istiqamətlərdə hücum siyasəti həyata keçirən Azərbaycan dövləti bu məsələdə də beynəlxalq ictimaiyyətin diqqətini cəlb edəcək və öz məqsədlərinə nail olacaq".

Səfərdə iştirak edən laçınlı məcburi köçkünlər otuzillik Vətən həsrətindən sonra doğma yurdlarına qayıtmaqdan sonsuz sevinc duyduqlarını bildiriblər.

Avropa Məhkəməsinin qərarında zərərçəkmiş kimi tanınan Laçın rayon sakini Adışirin Çıraqov öz təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyib: "Doğma torpağımıza qovuşmağın yaratdığı sevinc hissini necə ifadə edəcəyimi bilmirəm. Laçını tərk etməyə məcbur qaldığımız ilk gündən daim mübarizə aparmışıq. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qərarı çoxlarına məlumdur. Həmin işlə bağlı məhkəmə insan haqları, torpaq və əmlak məsələlərinə dair üç iddiamıza baxıb və 2015-ci ildə xeyrimizə qərar qəbul edib. Biz Ermənistanı üzərinə qoyulan öhdəliyi yerinə yetirməyə çağırırıq. İddialarımız təmin olunana qədər mübarizəmizi davam etdirəcəyik".

Laçın rayonundan olan digər sakin Elxan Çıraqov doğma yurduna Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı qələbəsi nəticəsində qayıtdıqlarını bildirib: "Otuz il ərzində işğal altında qalan əzəli torpaqlarımız Müzəffər Ali Baş Komandanımızın və qəhrəman Ordumuzun sayəsində cəmi 44 gün ərzində düşməndən azad edildi. Bu gün Laçın torpağına qədəm qoyduğumuz üçün sevincimizin hədd-hüdudu yoxdur. Bizim üçün bundan daha gözəl, sevincli gün ola bilməz. Vaxtilə laçınlı Sultan bəy Zabux dərəsində ermənilərin qarşısını kəsib onların layiqli cavabını verib. Vətən müharibəsində isə Azərbaycan Ordusu düşmənə heç vaxt unutmayacağı dərs verdi. Bu anı bizə yaşatdığı üçün Azərbaycan Prezidentinə və ordumuza dərin minnətdarlığımızı bildiririk. Doğma torpaqlarımızın azad edilməsi uğrunda canından keçən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm".

Ermənistanın hüquqi müstəvidə də məğlub olduğunu qeyd edən sakin bildirib: "Bu qərarla biz Ermənistan dövlətinə hüquqi müstəvidə də qalib gəldik. Məhkəmənin bizim xeyrimizə qərar qəbul etməsinə baxmayaraq, Ermənistan həmin qərarın icrası istiqamətində bu günə qədər heç bir addım atmayıb. Buna görə də iddialarımız tam təmin olunana qədər mübarizəmizi davam etdirəcəyik".

Avropa Məhkəməsinin qərarına əsasən, Ermənistanın azərbaycanlı məcburi köçkünlər qarşısında cavabdeh tərəf kimi tanındığını ifadə edən laçınlı məcburi köçkün Fəxrəddin Paşayev deyib: "İşdə zərərçəkmiş kimi tanınan hər bir ailəyə məhkəmənin qərarı ilə Ermənistan tərəfindən təzminat ödənilməsi əksini tapıb. Lakin Ermənistan müxtəlif bəhanələrlə bu tələbi yerinə yetirməkdən boyun qaçırır. Buna görə də məhkəmə təzminatın ödənilməsinə dair ikinci dəfə qərar qəbul edib. Təəssüf ki, Ermənistan hələ də həmin təzminatı ödəməyib. Biz döyüş meydanında qələbə qazanıb torpaqlarımızı azad etdiyimiz kimi, bu təzminatı da Ermənistana ödətdirəcəyik. Çünki "qisas qiyamətə qalmaz" deyiblər. Bu məsələdə güzəştə getməyəcəyik".

Vətən müharibəsində qələbədən sonra azad edilmiş torpaqlara qalib xalqın nümayəndələri kimi qayıtdıqlarını vurğulayan F.Paşayev bildirib: "Hər günün öz hökmü var. Bəlkə də bir il əvvəl bu torpaqlara qədəm qoysaydıq, bizə ağır təsir edərdi, çox kövrələrdik. Ancaq bu gün doğma Laçın torpağına qalib dövlətin qalib vətəndaşları kimi məğrur, başıdik qayıtmışıq. Ən önəmlisi budur ki, biz hüquqi müstəvidə də, hərb meydanında da qalib gələn dövlətin vətəndaşları kimi Laçına gəlmişik. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Allah Müzəffər Ali Baş Komandanımızı qorusun".

# "Əl Cəzirə" telekanalı Qarabağda dağıdılmış tarixi-mədəni irs haqqında reportaj yayımlayıb



**Nüfuzlu "Əl Cəzirə" telekanalı ermənilərin Qarabağda məhv etdikləri Azərbaycan xalqına məxsus tarixi-mədəni irs abidələri haqqında reportaj yayımlayıb.**





AZƏRTAC xəbər verir ki, reportajda tədqiqatçı Bayram Niftəliyev 30 ilə yaxın işğal dövründə ermənilərin tarixi mədəniyyət abidələrini, muzeyləri, təhsil müəssisələrini, kitabxanaları, qəbiristanlıqları, məscidləri, alban və rus ortodoks kilsələrini məhv etdiklərini söyləyib. Tarixçi Şaiq Aslanov isə telekanala müsahibəsində qeyd edib ki, müharibə təkcə dinc insanları və hərbçilərin həlak olması kimi fəlakətlər gətirməyib, həmçinin tarixi-mədəni irs abidələrinin də dağıdılmasına səbəb olub. O əlavə edib ki, Qarabağda islam və xristian abidələrinə qarşı vandal aktları törədilib. O ümidvar olduğunu bildirib ki, bəşəriyyətin mədəni irsinin ayrılmaz hissəsi olan tarixi abidələr bir daha məhv edilməyəcək.

Azərbaycanın Xocavənd rayonunda reportaj hazırlayan telekanalın müxbiri Rəsul Sərdar qeyd edib ki, atəşkəs elan edildikdən və silahlar susduqdan sonra Azərbaycan və Ermənistanı sülhə aparan uzun yol gözləyir. Lakin insanlar ümid edirlər ki, bu torpaqlarda yaşanan dəhşətli hadisələr bir daha təkrar olunmayacaq.

# REGİONLAR

# Sumqayıt turizm şəhərinə çevrilir

**Abşeron yarımadasının şimalında, paytaxt Bakının bir addımlığında yerləşən Sumqayıtı ölkəmizə gələn turistlərin böyük hissəsi vaxtaşırı ziyarət edir. Yay gələndə isə şəhərin qonaqlarının sayı daha da artır. Çünki bu ərazidə Xəzər çimərlikləri daha təmiz və abaddır.**









Halbuki sahilboyu on kilometrlərlə uzanan Sumqayıt çimərlikləri əvvəllər baxımsız vəziyyətdə idi. İnsanlarla yanaşı, ev heyvanları da buranı özünə "istirahət" yeri seçmişdi. İndi isə fərqli mənzərə var, Sumqayıt çimərlikləri yerli əhalinin və qonaqların sevimli istirahət məkanına çevrilib. Çimərlik turizminin bütün tələblərinə burada əməl olunur.

Dəniz sahili boyu çimərliklər Sumqayıtda bulvarla tamamlanır. Qeyd edək ki, son illər reallaşdırılan mühüm layihələrdən biri də Sumqayıt dənizkənarı bulvarının yenidən qurulmasıdır. Öncə onu qeyd edək ki, Xəzərin Sumqayıt sahillərində belə bir bulvarın salınması ölkəmizdə görülən sosial layihələrin ardıcıl və məqsədyönlü həyata keçirildiyini nümayiş etdirir.

Bulvarın uzunluğu 5 kilometrə yaxındır. Dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə yerləşən bulvarın 55 hektar ərazisində yaşıllıq zolağı salınıb. 160 mindən çox ağac və dekorativ kol, 2 milyondan artıq gül və çiçək əkilib. Hazırda Sumqayıt bulvarının genişləndirilməsi və orada yaşıllaşdırma işləri davam edir. Yaxın gələcəkdə bulvarın ərazisi bir neçə hektar genişlənəcək. Bulvar kompleksindəki yeniliklərdən biri də avtomat suvarma sistemidir. Ərazidə həmçinin kommunikasiya xətləri çəkilib, müxtəlif ölçülü 1500 işıq dirəyi və işıqlandırma sistemləri quraşdırılıb, sakinlərin rahat istirahəti üçün 600-dən artıq oturacaq qoyulub, müxtəlif yerlərdə 50 kölgəlik yaradılıb, 5 rəngli fontan inşa edilib. Bunlardan əlavə, bulvarın ərazisində velosipedçilər üçün xüsusi hərəkət zolağı və piyada yolu salınıb, 4,2 kilometr yola asfalt, 30 hektar əraziyə daş döşənib.

Ərazidə Bayraq meydanı da tikilib. Sahildə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğundakı tərsanə isə bu meydana xüsusi naxışlar qatır. Buradakı Bayraq muzeyi də gəzintiyə gələnlərin ən çox üz tutduqları məkandır.

Təxmini hesablamalara görə, buranı ziyarət edənlərin yarısı xarici ölkələrdən gələn turistlərdir. Həm də bu səbəbdən bulvarda kiçikölçülü gəzinti avtobusları və avtomobil yolu salınıb. Elektriklə işləyən avtobuslarda gəzmək insana xüsusi zövq verir. Bununla yanaşı, bulvarda kafe-çay evləri, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Hazırda isə bulvarın yaxınlığında pansionatlar, hotellər və istirahət mərkəzləri tikilir.

Yaxın gələcəkdə şəhər turizminin inkişafının daha da sürətlənəcəyi şübhəsizdir. Bunun bir səbəbi də şəhərin beynəlxalq əlaqələrinin genişlənməsidir. Sumqayıtın hazırda dünyanın onlarca şəhəri ilə qarşılıqlı ticarət əlaqələri var.

Nə qədər qəribə olsa da, Sumqayıtda kənd turizmi də inkişaf edir. Corat qədim kənddir. Əvvəllər İslam ölkələrindən kəndə həm ziyarətə, həm də turist kimi gəzməyə gələrdilər. Sovet dövründə dəfələrlə kəndin tarixini öyrənmək və turizm xəritəsini yaratmaq üçün cəhdlər edilsə də, mümkün olmamışdır. Müstəqillik dövründə isə Corata diqqət artıb. Son illər həyata keçirilən abadlıq işləri, yol infrastrukturunun yenilənməsi nəticəsində Corat turistlərin xüsusi maraq göstərdiyi əraziyə çevrilib. Hələ yay başlamamış kənddə evlərin çoxu turistlər tərəfindən kirayələnir. Dənizin və Sumqayıtın bir addımlığında olması kəndi cəlbedici etmişdir. Digər tərəfdən, yaşı yüz illərlə ölçülən məscid, tarixi qala divarları, qədim hamamlar, xan evi və digər abidələr də kəndi maraqlı turizm məkanına çevirmişdir.

Qayıdaq Sumqayıta, daha doğrusu, şəhərin turizm sahəsindəki potensialına. Ümumiyyətlə, həyata keçirilən quruculuq işləri nəticəsində Sumqayıt inanılmaz dərəcədə dəyişib. İnşa edilən mehmanxanalar şəhər turizminin inkişafı üçün geniş imkanlar yaradıb. Bu gün şəhərdə xüsusi ictimai turlar təşkil olunur. Bütün marşrutlar məşhur "Göyərçin" abidəsindən başlayır və 12 istiqamətdə davam edir. Bu marşrutlar Heydər Əliyev parkı, Kimyaçılar sarayı, Tarix muzeyi və digər maraqlı yerlərdən keçir. Sumqayıtda turizmin inkişafına təkan verən cəhətlərdən biri də şəhərin təmiz havasıdır. Bu gün Sumqayıt sənaye şəhəri olsa da, ekoloji cəhətdən təmizdir, tullantısız sənaye mərkəzidir. Digər cəhət isə şəhərin dəniz səviyyəsindən yuxarıda yerləşməsidir. Bu səbəbdən isti yay günlərində belə Sumqayıtda sərin meh olur. Bir sözlə, bir vaxtlar təkcə Azərbaycanda yox, bütün keçmiş ittifaqda ekoloji cəhətdən ən çirkli şəhər hesab olunan Sumqayıt bu gün sürətlə Azərbaycanın turizm mərkəzlərindən birinə çevrilir. Nəzərə alsaq ki, turizm həm də gəlirli sahələrdən biridir, onda Sumqayıtın yeni statusunun şəhərin sosial-iqtisadi inkişafına əlavə güc qatacağı şübhəsizdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhid ailəsi üzvləri və müharibə iştirakçısı işlə təmin edilib

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin başlatdığı "Məşğulluq marafonu"nda aktiv iştirak edir. "Aqroservis ASC" tərəfindən "Məşğulluq marafonu" çərçivəsində 10 nəfər şəhid ailəsi üzvü və mühariəbə iştirakçısı işlə təmin edilib.




Cəmiyyətin vakant elan etdiyi 32 vəzifə üzrə 10 nəfər şəhid ailəsi üzvü və müharibə iştirakçısı "Aqroservis"in Şəki, Ağcabədi, Yevlax, Bərdə, Şəmkir, Xaşmaz regional nümayəndəliklərinin rayon bölmələrində və qurumun təsərrüfat sektorunda operator, iqtisadçı, sürücü və digər işlərlə təmin olunublar. Şəhid ailələri və müharibə iştirakçılarının vakant yerlər üzlə işlə təmin olunması davam etdiriləcək.

Qeyd edək ki, aksiyanın məqsədi torpaqlarımızın azad edilməsi uğrunda hərbi əməliyyatlarda canından keçən şəhidlərimizin və müharibə iştirakçılarının işlə təmin olunmasına yardım etməkdir.

"Aqroservis" ASC ilə yanaşı, digər tabeli qurumlar da bu çağırışlara həssaslıq nümayiş etdirərək qeyd olunan kateqoriyadan olan vətəndaşların işlə təmin olunması istiqamətində addımlar atırlar.

# Masallıda Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinə medallar təqdim olunub

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Masallı rayon şöbəsində Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vətən müharibəsi zamanı Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda döyüş tapşırıqlarını uğurla yerinə yetirərək şəhidlik zirvəsinə yüksəlmiş Masallı rayonundan olan 3 şəhidin ailə üzvlərinə və 164 nəfər hərbi qulluqçuya "Füzulinin azad olunmasına görə" medalı təqdim olunub.



Bu münasibətlə keçirilən tədbirdə rayonun rəhbər işçiləri, ağsaqqallar və ziyalılar, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Masallı rayon şöbəsinin və digər ictimai təşkilatların nümayəndələri, şəhidlərin ailə üzvləri, hərbi qulluqçular iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Masallı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmmədhüseyn Hüseynov, SHXÇDX-nin rayon şöbəsinin rəisi, polkovnik-leytenant Vəli Rzayev, iki şəhid anası Ziba Əsgərova, Masallı Rayon Ağsaqqallar Şurasının sədri, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli, yazıçı-publisist, jurnalist Ələşrəf Niftiyev, "Masallı ziyalıları" İctimai Birliyinin sədri, "Tərəqqi" medallı Qardaş Fətullayev, Rayon Gənclər Evinin direktoru, "Füzulinin azad olunmasına görə" medallı Fuad Mənsimov və başqaları 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən Masallıdan olan döyüşçülərin qəhrəmanlıqlarından danışaraq ölkəmizdə müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən dövlət qayğısını yüksək dəyərləndiriblər.

Müharibə iştirakçıları və şəhid ailələrin üzvləri onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# ADAU-da ödənişsiz təkmilləşdirmə kursları fəaliyyətə başlamışdır

"Aqrar sahədə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılması" layihəsi çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) aqronomluq, baytarlıq və aqromühəndislik istiqamətləri üzrə ödənişsiz təkmilləşdirmə kurslarına start verilib.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Dövlət Aqrar İnkişaf mərkəzlərinin, "Azərşəkər" MMC, "MF Baytarlıq" MMC və bir sıra təşkilat və müəssisələri əməkdaşlarının, eləcə də ADAU məzunlarının, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fermerlərin iştirak etdikləri açılış mərasimində universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov çıxış edərək diqqətə çatdırmışdır ki, kursların təşkilində əsas məqsəd aqronomluq, baytarlıq və aqromühəndislik istiqaməti üzrə fəaliyyət göstərən mütəxəssislərin praktik bilik və bacarıqlarını artırmaqdır.

Çıxış edən mütəxəssislər bu cür kursların vacibliyini vurğulayaraq, universitetin maşın-traktor parkının, müasir tədris mərkəzlərinin, heyvandarlıq komplekslərinin, baytarlıq klinikasının, heyvan kəsimi sexinin, quşçuluq tədris mərkəzinin, süni mayalanma tədris mərkəzinin, qeyd olunan sahələr üzrə təkmilləşdirmə kurslarının təşkilinə geniş imkanlar yaratdığını diqqətə çatdırmışlar.

Qeyd etmək lazımdır ki, təkmilləşdirmə kursları ödənişsizdir. Layihə iştirakçıları universitetin tələbə evində ödənişsiz yaşayış yeri ilə təmin olunmuşlar. Kursları uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Birlik" Qarabağ gənclərinin həmrəylik düşərgəsi yaradılıb

Azərbaycan Respublikası Gənclər Fondunun İqtisadiyyat Nazirliyinə müraciəti əsasında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin Şamaxı rayonunda yerləşən inzibati kompleksində "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən "Birlik" Qarabağ gənclərinin həmrəylik düşərgəsi təşkil olunub.




Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, Tədris mərkəzinin rəisi səlahiyyətlərini icra edən Mirəli Kazımov tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfərdə milli birliyimizin rolundan, postmünaqişə dövründə Qarabağın dirçəlişi və Böyük Qayıdış prosesində gənclərin fəallığından danışıb.

Tədbir çərçivəsində ayrıca bir gün vergi sahəsinə, bu mövzunun təbliğinə və vergi sistemi ilə tanışlığa həsr olunub. Dövlətin milli təhlükəsizliyinin tərkib hissəsi kimi iqtisadi təhlükəsizliyin təminatı, bu sahədə vergitutmanın rolu, müasir vergi siyasətinin əsas cəhətləri, vergi sistemi ilə ölkənin inkişafı arasında qarşılıqlı əlaqə barədə gənclərə ətraflı məlumat verilib.

Tədris mərkəzinin əməkdaşları tərəfindən vergi münasibətləri, vergi siyasəti və vergi sistemi, vergitutma, müharibə veteranları, şəhid ailələri üçün nəzərdə tutulan vergi güzəştləri və sair mövzularda gənclərin sualları cavablandırılıb.

Vergi mədəniyyətinin dövlətin sosial-iqtisadi həyatında rolu mövzusunda aparılan müzakirələr gənclərdə xüsusi maraq doğurub.

# Günəbaxan sahələrində məhsul yığımına başlanıb



**Ölkənin günəbaxan sahələrində məhsul yığımına start verilib. Günəbaxan əksər bölgələrdə rayonlaşdırılmış bitki sayılır. Günəbaxan sahələrinin böyük əksəriyyəti Gəncə-Daşkəsən, Qarabağ və Qazax-Tovuz iqtisadi rayonlarının ərazisindədir.**

Bu il Azərbaycanda təxminən 11 min hektara yaxın sahədə günəbaxan əkilib. Əkin sahələrinin 2525 hektarı Goranboy, 2331 hektarı Tərtər, 1791 hektarı Samux, 979 hektarı Ağstafa, 935 hektarı Çəmkir rayonunun payına düşür.

Günəbaxan ən gəlirli və əməktutumlu bitki növlərindən sayılır. Kənd yerlərində gəlirlərin formalaşmasında və məşğulluğun artmasında bu bitkinin becərilməsinin böyük rolu var. Bitkinin tam vegetasiya müddəti iyulun sonlarında başa çatır, məhsul yğımına isə avqustun əvvəllərində start verilir.

Ötən il Azərbaycanda 11016 hektar sahədə günəbaxan əkilib. Mövsümün sonunda sahələrdən 24574 ton məhsul yığılıb. Günəbaxan üzrə orta məhsuldarlıq 22,4 sentner təşkil edib.

Qeyd edək ki, günəbaxan, əsasən, yağlı bitki kimi becərilir. Müasir sortların tərkibində yağın miqdarı 50-52 faizə çatır. Bitki yağlarının böyük ərzaq və texniki əhəmiyyəti vardır. Günəbaxan yağından yeyinti sənayesində, konserv, qənnadı məmulatı, marqarin hazırlanmasında geniş istifadə edilir. Eyni zamanda lak-boya, sabun bişirmə, gön-dəri aşılama, ətriyyat, toxuculuq və s. sənaye sahələrində istifadə olunur.

Günəbaxan toxumlarının qabığından xammal kimi sənayedə heksoz və pentoz şəkərlərinin alınmasınyda istifadə olunur ki, bunlardan da süni lif, plastmas, qırılmayan şüşələr və s. alınmasında istifadə edilır. Yağlı bitkilər həm də bitki zülalı mənbəyidirlər. Toxumların yağı emal edilərkən qalan jmıx və cecədə 35-40 faiz zülal olur. Yağın emalından sonra qalan cecənin bir sentneri 102 yem vahidinə, yaxud 3,6 kq proteinə bərabərdir. Günəbaxanın yaşıl kütləsindən iribuynuzlu malqara üçün yem və keyfiyyətli silos alınır. Səbətdən hazırlanmış 1 sentner unun yem vahidi 80 kq-ya, asan həzm olunan protein isə 3,8-4,3 kq-ya bərabərdir.

# Böyük İpək yolunun Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin genişləndirilməsi layihəsinin icrası gələn il yekunlaşacaq

**Qədim İpək yolu üzərində yerləşən müasir yol infrastrukturu sayəsində region ölkələrinin həm daşımalarla bağlı problemləri həllini tapır, həm də onların bu sahədə imkanları artır.**



Dövlət Avtomobil Yolları Agentliyinin yaydığı məlumatda bildirilir ki, Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən, istər şərq-qərb, istərsə də şimal-cənub istiqamətlərində avtonəqliyyat vasitələri ilə beynəlxalq yükdaşımaları dəhlizi üzərində yerləşən avtomobil yollarının müasir səviyyədə yenidən qurulması və bu istiqamətdə aparılan islahatlar nəticəsində son 15 ildə I texniki dərəcəli yolların uzunluğu 5 dəfəyə qədər artaraq 900 km-i keçmişdir.

Dövlət başçısı beynəlxalq miqyaslı Böyük İpək yolunun tərkib hissəsi olan Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yoluna daha 2 hərəkət zolağı əlavə edilməklə I texniki dərəcəyə uyğun təkmilləşdirilməsi layihəsini daim diqqət mərkəzində saxlayır. Çünki həmin avtomobil yolu beynəlxalq avtomobil yükdaşımaları dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır.

Bakıdan Gürcüstan sərhədinədək 503 km-lik magistralın Bakıdan Gəncə şəhərinədək olan hissəsinin müxtəlif illərdə I texniki dərəcəyə təkmilləşdirilməsi işləri yekunlaşıb. Hazırda isə magistral yolun 130 km-lik Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 hərəkət zolağına genişləndirilməsi layihəsinin icrası davam edir.

Tikinti-quraşdırma işləri magistral avtomobil yolunda vətəndaşların rahat və maneəsiz hərəkəti dayandırılmadan yerinə yetirilir, "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun keyfiyyətlə aparılır.

Layihəyə əsasən, yolun ümumi eni 27,5 metrdir. Hər birinin eni 3,75 metr olmaqla 4-6 hərəkət zolağından ibarət yolun örtüyü polimer asfalt-beton, yol yatağının qalınlığı, ümumilikdə, 72,5, asfalt-beton örtüyü 3 lay olmaqla qalınlığı 27 sm olacaq.

Layihə çərçivəsində 25 yol qovşağı və ötürücüsü, 16 avtomobil körpüsü, 83 yeraltı keçid, 43 düzbucaqlı su keçidi, 575 dairəvi suötürücü boru inşa edilir. Layihə boyu zəruri yerlərdə 84 avtobus dayanacağı quraşdırılacaq. Artıq müxtəlif süni qurğuların inşası istiqamətində işlərin böyük hissəsi yerinə yetirilib.

Ümumilikdə, işlərin 70 faizi görülüb. Layihənin növbəti il ərzində yekunlaşdırılması planlaşdırılır.

Jurnalist araşdırması

# Xəzər təlatümü

## Altı milyon il yaşı olan dənizin şimal hissəsi tamamilə quruya, böyük ekoloji, iqtisadi, hətta siyasi problemlər yarada bilər

**Dünyanın ən qədim su hövzələrindən olan Xəzər dənizinin səviyyəsinin tərəddüdləri son illərdə alimlər tərəfindən ən çox müzakirə edilən məsələlərdəndir. Xəzəryanı ölkələrin iqtisadiyyatının formalaşmasında xüsusi rolu olan bu dənizin səviyyəsinin əsrin sonunadək xeyli enəcəyi bildirilir. Sözsüz ki, bütün bunların sonda dənizin ekosisteminə, Xəzəryanı ölkələrin isə ətraf mühitinə və iqtisadi həyatına təsir göstərəcəyi də istisna edilmir.**



### Qara dənizə gah birləşib, gah ayrılan qoca Xəzər

Xəzər dənizinin yaranması 5-6 milyon il əvvəl - qədim Tetis dənizinin tektonik proseslər nəticəsində Sakit və Atlantik okeanları ilə əlaqəsinin kəsilməsi və nisbətən kiçik su hövzələrinə parçalanması dövrünə təsadüf edir. Bundan sonra müxtəlif dövrlərdə o, Qara dənizlə gah birləşib, gah da ayrılıb. Xəzər dənizinin müasir sahil konturları isə yalnız 1,8 milyon il əvvəl, daha doğrusu, onun dünya okeanı və digər dənizlərlə əlaqəsinin tam kəsilməsi nəticəsində formalaşıb.

Avropa ilə Asiya qitələri arasında yerləşən Xəzər dünya okeanı ilə birbaşa əlaqəsi olmasa da, böyük ölçülərinə və dib qabığının quruluşunun okean tipinə görə dəniz adlandırılan göldür. Dünyadakı göl sularının 40 faizdən böyük hissəsi Xəzərdə cəmləşib.

Xəzərin dərinliyi onun müxtəlf hissələrində fərqlidir. Şimali Xəzərdə orta dərinlik 5 metr olduğu halda, cənuba doğru getdikcə dərinlik artır və 1025 metrə çatır.

Azərbaycan Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərov bildirir ki, dünya okeanı ilə birbaşa əlaqəsi olmadığından Xəzərin səviyyəsi daim tərəddüdlərə məruz qalıb. Son minillikdə Xəzərin ən aşağı səviyyəsi X əsrdə olub ki, həmin zaman onun səviyyəsi okean səviyyəsindən 35 m aşağı imiş. Ən yuxarı səviyyə (okean səviyyəsindən 22 m aşağı) isə XIV və XVIII əsrlərdə qeydə alınıb. Sonrakı yüzilliklərdə dənizin səviyyəsi ümumən artmağa doğru getsə də, əsrlik səviyyə tərəddüdlərinin amplitudu 2-4 m diapazonunda dəyişib. Beləliklə, bütün əsrlərdə Xəzər dənizinin səviyyəsinin enmə və qalxma dövrləri olub. Daha doğrusu, Xəzərin səviyyəsi özünəməxsus uzunmüddətli dəyişmə perioduna malikdir.

### Xəzərin səviyyəsi daim kəskin dəyişir

Alim əlavə edir ki, XX əsrdə dənizin səviyyə dəyişmələri 2 dəfə kəskin xarakter alıb. 1930-cu ildən 1977-ci illərə qədər müddətdə Xəzərin səviyyəsi 3 metr aşağı düşərək son 400 ilin mütləq minimumuna (-29 m) çatıb. Lakin 1977-ci ildən səviyyə kəskin şəkildə qalxmağa başlayıb. 1995-ci ilə qədər bu artım 2,5 metr təşkil edib. Sonrakı dövrdə dənizin səviyyəsi kəskin tərəddüdlərə məruz qalmasa da, səviyyə hər halda nəzərəçarpacaq dərəcədə azalmağa doğru gedir. Hazırda dənizin səviyyəsi -28 metrə yaxındır.

Mütəxəssis hesab edir ki, kəskin səviyyə dəyişmələri Xəzəryanı ölkələrin iqtisadiyyatına və ekologiyasına ciddi təsir göstərdiyindən onların uzun müddət üçün qabaqcadan proqnozlaşdırılması böyük əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, indiyə kimi dəniz səviyyəsi tərəddüdlərini əvvəlcədən uzunmüddət üçün proqnozlaşdırmağa imkan verən etibarlı metodlar mövcud deyil. Əksər hallarda bu haqda verilən proqnozlar dəyişir. Məsələn, 1930-1977-ci illərdə dənizin səviyyəsi azalarkən əksər alim və mütəxəssislər səviyyənin düşməsinin gələcəkdə də davam edəcəyini proqnozlaşdırırdılar. Keçən əsrin 70-ci illərində alimlərin Xəzər dənizi səviyyəsinin kəskin aşağı düşməkdə davam edəcəyi ilə bağlı bədbin proqnozlar səbəbindən hətta keçmiş Sovetlər İttifaqında şimala axan Şimali Dvina və Peçora çaylarının istiqamətinin dəyişdirilərək Volqa çayına, oradan isə Xəzərə axıdılması üçün layihələr işlənilirdi. Lakin 1977-ci ildən dəniz səviyyəsinin kəskin qalxmağa başlaması ilə bu layihələr öz aktuallığını itirdi.

### Qorxunc proqnozlar

Səid Səfərov deyir ki, 1977-ci ildən sonra dəniz səviyyəsinin 1995-ci ilə qədər kəskin artdığı müddətdə əksər alimlər tərəfindən səviyyənin gələcəkdə də yüksəlməkdə davam edəcəyi proqnozlaşdırılırdı. 1995-ci ildə səviyyə artımı dayansa da, son 10-15 ildə yenidən nəzərəçarpacaq azalma müşahidə edildi. Bu da müxtəlif alimlər tərəfindən əsrin sonunadək Xəzərin səviyyəsinin fəlakətli dərəcədə aşağı düşəcəyi haqda bədbin proqnozların verilməsi ilə müşayiət olundu. Bu baxımdan alman və holland alimlərinin "Nature Communications Earth & Environment" jurnalında dərc olunmuş məqalədə verdikləri proqnoz daha qorxuludur.

Belə ki, onlar müxtəlif ssenarilərə əsasən, XXI əsrin sonunadək Xəzərin səviyyəsinin 9-18 metr aşağı düşəcəyini proqnozlaşdırırlar. Bundan əvvəlki proqnozlardan fərqli olaraq, burada məqalə müəllifləri problemə gözlənilən qlobal istiləşmə ssenariləri kontekstindən yanaşıblar. Birinci ssenariyə əsasən, dünya dövlətlərinin atmosferə parnik qazlarının atılmasının məhdudlaşdırılması haqda Paris Razılaşmasına riayət etdikləri halda Xəzərin səviyyəsinin əsrin sonunadək 9 metr, ikinci ssenariyə əsasən (razılaşmaya əməl edilmədiyi halda) 18 metr aşağı düşəcəyini proqnozlaşdırıblar. Məqalə müəlliflərinin qənaətinə görə, belə aqibət yalnız Xəzər dənizini deyil, digər qapalı su hövzələrini də gözləyir: "Səviyyənin aşağı düşməsində əsas səbəb kimi əsrin sonunadək havanın temperaturunun kəskin yüksəlməsi nəticəsində dəniz səthindən buxarlanan suyun miqdarının artması göstərilir. Xəzər dənizinin səviyyəsi onun su balansı ilə müəyyən olunur. Su balansının mədaxil hissəsini dənizə tökülən çayların gətirdiyi suyun miqdarı və onun səthinə düşən yağıntıların miqdarı, məxaric hissəsini isə səthdən buxarlanan suyun miqdarı təşkil edir. Balansın məxaric hissəsi (buxarlanma) mədaxil hissəsindən (atmosfer yağıntıları və çayların gətirdiyi su) böyük olduqda səviyyə aşağı düşür, əksinə olduqda isə yüksəlir".

### Xəzər təhlükəli sürprizlər vəd edir

Tədqiqatçılar hesab edirlər ki, alman və holland alimlərinin Xəzər dənizi haqqında verdiyi proqnoz hətta "yumşaq" ssenari üzrə özünü doğruldarsa (səviyyənin 9 m aşağı düşməsi), Xəzər regionunun ekoloji, iqtisadi, hətta siyasi stabilliyində böyük problemlər yaşana bilər.

Bunlardan bir neçəsini açıqlayan alimin fikrincə, səviyyənin kəskin aşağı düşməsi Şimali Xəzərin, demək olar ki, tamamilə qurumasına, sahil landşaftının deqradasiyasına və ümumiyyətlə, dənizin sahil xəttinin nəzərəçarpacaq dəyişməsi ilə quru sahələrin artmasına və Xəzərətrafı ölkələr arasında ərazi problemlərinin yaranmasına səbəb ola bilər. Bununla yanaşı, dəniz naviqasiyasında, neft-qaz hasılatı və daşınmalarında ciddi problemlər yarana bilər.

Sahil infrastrukturunda və rekreasiya fəaliyyətində hissolunacaq çətinliklərin meydana çıxması və əlavə xərclərə ehtiyacın yaranması mümkündür. Hazırda çox da qənaətbəxş olmayan dəniz ekosistemində baş verə biləcək ciddi neqativ dəyişikliklər biomüxtəlifliyin nəzərəçarpacaq dərəcədə azalması, o cümlədən qiymətli balıq növlərinin və digər nadir dəniz canlılarının kökünün tamamilə kəsilməsi və ya populyasiyaların minimuma enməsi ilə nəticələnə bilər. Dayaz ərazilərin, o cümlədən Qızılağac körfəzinin və ərazidəki bataqlıqların quruması köçəri quşların miqrasiyasında ciddi problemlər yarada bilər. Xəzər dənizində səviyyə dəyişmələrinin "sərt" ssenari üzrə (səviyyənin 18 m enəcəyi) gedəcəyi halda isə vəziyyətin daha dramatik olacağı proqnozlaşdırılır.

### Vəziyyətdən çıxış yolu nədir?

Digər uzunmüddətli proqnozlar kimi alman və holland alimlərinin də Xəzər dənizində gözlənən səviyyə dəyişmələri haqda verdikləri proqnozun nə dərəcədə özünü doğruldacağı sual altındadır. Məsələnin ikinci tərəfi isə ondan ibarətdir ki, dəniz səviyyəsində proqnozlaşdırılan azalma bilavasitə müasir iqlim dəyişmələri, daha doğrusu, qlobal istiləşmə ilə bağlıdır.

Səid Səfərov nəzərə çarpdırır ki, əsrin sonunadək planetimizdə gözlənilən kəskin temperatur artımı yalnız Xəzər dənizi akvatoriyasına deyil, bütün dünya ekosisteminə ciddi təsir edəcək. Belə ki, Arktika, Antarktida və Qrenlandiyada buzların əriməsi dünya okeanının səviyyəsini o dərəcədə qaldıra bilər ki, bir çox ərazilər su altında qala bilər. Həmin ərazilərə yuxarıda qeyd edilən məqalə müəlliflərinin yaşadığı Almaniya və Hollandiyanı da aid etmək olar. Bundan başqa, qlobal istiləşmə bir çox ərazilərdə kəskin içməli su və ərzaq problemləri yarada bilər. Gözlənilən problemi və onun nəticələrini qismən də olsa yumşaltmaq üçün bütün ölkələrin, xüsusilə də inkişaf etmiş dövlətlərin gərgin səyi lazımdır. Belə ki, yaxın vaxtlarda qlobal istiləşməyə səbəb olan karbon qazı və digər parnik qazlarının atmosferə atılmasında ciddi azalma baş verməsə, planetimiz böyük təhlükə qarşısında qalacaq.

Lakin səviyyənin kəskin azalacağı haqqında bədbin proqnozların özünü doğruldub-doğrultmayacağından asılı olmayaraq, dəniz ekosisteminin və biomüxtəlifliyinin qorunub saxlanılması və Xəzər regionunun ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün Xəzəryanı ölkələrin üzərinə böyük məsuliyyət düşür.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*

# "Bizim müəllim layihəsi" çərçivəsində gənc müəllimlərlə görüş keçirilmişdir

Ağstafada "Bizim müəllim layihəsi" çəçrivəsində öz peşə və bacarıqları sahəsində nailiyyətlər qazanmış bir qrup gənc müəllimlə görüş keçirilmişdir.





Tədbir iştirakçıları öncə rayonun Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmişlər.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edənlər təhsil sahəsinə göstərilən yüksək dövlət qayğıkeşliyindən bəhs edərək diqqətə çatdırmışlar ki, Prezident İlham Əliyevin fəaliyyəti onun Ulu Öndərin əsasını qoyduğu mütərəqqi elm və təhsil ənənələrini və yeni dövrün tələblərinə uyğun zənginləşdirdiyini göstərir. Bu gün milli təhsilimizin inkişafı məsələsi öz məzmununu dəyişərək, artıq həm də Azərbaycanın gələcək inkişaf modelinin əsasını formalaşdıran başlıca amil kimi gündəmə gətirilmişdir.

Tədbirdə təhsil sahəsində fərqlənən gənc müəllimlərdən bir qrupuna Ağstafa rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin fəxri fərmanları təqdim olunmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Vətən müharibəsində ağır yaralanan daha 3 qazi "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib

Vətən müharibəsində ağır yaralanan daha 3 qazi "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlar Atakişiyev Nəriman Qələndər oğlu, Ağayev Mübariz Şahab oğlu və Muradov Tanırverdi Mədəd oğludur.

Allah qazilərimizə şəfa versin!

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Xatırladaq ki, fond tərəfindən bugünə qədər 123 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 65-nin müalicə proseduru artıq uğurla yekunlaşıb və vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib. "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# DSX-nin iki hərbi qulluqçusunu öldürməkdə təqsirləndirilən sərhəd pozucularından biri ilə bağlı cinayət işi məhkəməyə göndərilib

**Azərbaycan Respublikasının Baş Prokurorluğu İran vətəndaşları olan sərhəd pozucularının silahlı müqaviməti nəticəsində Dövlət Sərhəd Xidmətinin iki hərbi qulluqçusunun həlak olması ilə bağlı cinayət işi üzrə məlumat yayıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 15-də Bərqi Həsənğuli Novruz oğlunun İran İslam Respublikasının digər vətəndaşları Əbdi Rəsul Zöhrab oğlu, Ağayi Əllahbəxş Bağış oğlu, Həsənzadə Huşəng Curi oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib sonuncudan külli miqdarda narkotik vasitə və psixotrop maddələr hesab edilən, ümumilikdə külli miqdar təşkil edən 3 kiloqram 947,755 qram heroini, 930 qram metamfetamini, ümumilikdə külli miqdar təşkil edən 8,34 qram metadonu və şəxsi istehlak miqdarından artıq miqdarda təmiz çəkisi 2,157 qram olan narkotik vasitəni - tiryəki, habelə "AK-74" markalı iki ədəd odlu silahı və onun komplekt hissələri olan daraqları, çoxsaylı 7,62 və 5,45 millimetrlik kalibrdə patronları və bir gecəgörmə cihazını əldə edib daşımaqla, İrandan Azərbaycan Respublikasının Yardımlı rayonu ərazisindən qaçaqmalçılıq yolu ilə ölkəmizin ərazisinə keçirərkən Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara odlu silahdan atəş açmaqla Xidmətin iki hərbi qulluqçusunu qəsdən öldürmələri faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılıb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cinayət hadisəsinin iştirakçılarından biri - İran İslam Respublikasının vətəndaşı Bərqi Həsənğuli Cinayət Məcəlləsinin 120.2.1-ci, 120.2.3-cü, 120.2.4-cü, 120.2.7-ci (qabaqcadan əlbir olan bir qrup şəxs halında iki zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar ümumi təhlükəli üsulla qəsdən öldürmə), 206.3.2-ci, 228.2.1-ci, 234.4.1-ci, 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah, onun komplekt hissələrini, habelə külli miqdarda narkotik vasitələr və psixotrop maddələri satış məqsədilə əldə etmə və qaçaqmalçılıq yolu ilə keçirmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs halında dövlət sərhədinin qanunsuz keçmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda İran vətəndaşı Bərqi Həsənğulinin yuxarıda qeyd edilən cinayəti törətməsinə əsaslı şübhələr müəyyən olunduğundan onun barəsində cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İstintaqın gedişi zamanı mayın 19-da saat 10:30 radələrində isə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətkar qrupun üzvü - İran İslam Respublikasının vətəndaşı Ağayi Əllahbəxş Bağış oğlunun Yardımlı rayonunun Zevin kəndi ərazisində gizləndiyi yer müəyyənləşdirilib. Həmin şəxs silahlı müqavimət göstərən zaman zərərsizləşdirilib. Digər iki İran vətəndaşı barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərarlar qəbul edilməklə axtarışları elan olunub.

Hazırda həmin cinayətin digər iştirakçılarının müəyyənləşdirilməsi və cinayət xarakterli bütün digər fakt və məlumatlar üzrə cinayət işi ayrıca icraata ayrılmaqla ibtidai istintaqı davam etdirilir.

# Vaksin olunmaqla koronavirusa qalib gələ bilərik

## ÜST pandemiya ilə mübarizənin yollarının yalnız peyvəndlənmədən keçməsini bir daha təsdiqlədi

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə bu sahədə görülən tədbirlər sayəsində yoluxma və ölüm sayı dünya statistikasına görə aşağı rəqəmlərlə ölçülür. Amma arxayınlaşmaq da düzgün olmazdı. Virus hələ də var və dünyanı sarımaqda davam edir. Pandemiyanın ilk vaxtlarında düşdüyümüz sarsıntıdan və qorxudan artıq çıxmışıq. İnsanlar indi virusla mübarizədə və ondan müdafiədə daha ayıqdılar. Artıq vətəndaşlarımız vəziyyəti daha düzgün dəyərləndirib qərar vermək bacarığına yiyələnmişdilər. Bununla belə vaksinasiyadan keçənlərin sayının yoluxanların və itkilərin sayını ötməsi üçün peyvənd olunmağı təxirə salmadan davam etmək lazımdır.

### Virusdan ölənlərin 99 faizi peyvənd olunmayan insanlardı

Azərbaycanda vaksinasiya prosesesinə yanvar ayından start verilib. Bugünə qədər ciddi əks göstəriş faktı qeydə alınmayıb. Vaksinasiya olunanlar normal, adi həyatlarına, iş prosesinə davam edirlər.

Yenidən qapanmalara və sərt tədbirlərə ehtiyac olmaması üçün ölkədə peyvənd olunanların sayı əhalinin heç olmasa 80 faizini təşkil etməlidir. Bu göstərici kollektiv immunitetin formalaşmasına gətirib çıxararaq və nəticədə pandemiya bəlasından xilas ola bilərik.

Virusdan ölənlərin 99 faizi peyvənd olunmamış insanlardır. Bu rəqəm peyvənd olunmağın üstünlüyünü bir daha təsdiqləyir. Deməli, insanlar vaksin vurdurmağa tələsməlidirlər.

*Ramilə QURBANLI, "Azərbaycan"*

# Azərbaycanda koronavirus infeksiyasına 996 yeni yoluxma faktı qeydə alınıb

**Son sutka ərzində Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 996 yoluxma faktı qeydə alınıb, 202 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 5 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 346 min 878 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 333 min 694 nəfər müalicə olunaraq sağalıb, 5039 nəfər vəfat edib. Aktiv xəstə sayı 8145 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 465, bugünə qədər isə ümumilikdə 4 milyon 70 min 700 test icra olunub.





XXXII Tokio Yay Olimpiya Oyunları

# Türk qadın boksçular finalda



**Türkiyənin iki qadın boksçusu Tokio Yay Olimpiya Oyunlarında finala yüksəlib.**

51 kq çəki dərəcəsində yarışan Buse Naz Çakıroğlu Çin Taypeyini təmsil edən Huanq Hsiao-Veni yarımfinalda məğlubiyyətə uğradıb. 68 kq çəkidə mübarizə aparan Busenaz Sürmeneli isə hindistanlı Lovlina Borqohainə şans verməyib-5:0.

Çakıroğlu qızıl medal uğrunda Stoyka Krasteva (Bolqarıstan) ilə, Sürmeneli isə Gu Honqla (Çin) döyüşəcək. Hər iki qarşılaşma avqustun 7-də olacaq.

Qeyd edək ki, tarixdə ilk dəfə türkiyəli qadın boksçular Olimpiadanın finalına yüksəlib.

## Nazim Babayev çox üzgündür

**“Bunu qəbul etmək çox çətindir. Ən çox üzüldüyüm isə mənə dəstək olanların, bütün Azərbaycan xalqının etimadını doğrulda bilməməyimdir”. Bunu Azərbaycan atleti Nazim Babayev özünün şəxsi “İnstaqram” səhifəsində yazıb.**

XXXII Yay Olimpiya Oyunlarında üç təkanla tullanma növündə finala yüksələ bilməyən idmançı ilk növbədə ona dəstək olan insanlara təşəkkür edib: “Hər kəsə, ailəmə, dostlarıma, məşqçimə və bütün Azərbaycan xalqına öz dərin minnətdarlığımı bildirirəm. Bütün yazılan mesajları, xoş sözləri görürəm və sizə dəstəyinizə görə hədsiz dərəcədə minnətdaram”.

Karyerasının ikinci Olimpiadasının geridə qaldığını söyləyən N.Babayev bu dəfə də çıxışının uğurlu olmadığını vurğulayıb: “4 ay müddətində ardıcıl zədələr, uzun müddət yarışlarda çıxış edə bilməməyim uğursuzluğa gətirib çıxardı. Amma içimdəki hiss məni heç bir halda təslim olmağa qoymaz. Heç bir halda yolumdan dönmərəm. Bu, hələ son deyil. Mən heç yana getmirəm. Bir az istirahətdən sonra yeni mövsümə hazırlıq başlayacaq. Qarşıdakı 3 il müddətində var gücümlə çalışacağam və biz sizinlə Parisdəki Olimpya Oyunlarında görüşəcəyik”.

Qeyd edək ki, Nazim Babayev Olimpiadada 32 idmançı arasında 15-ci yeri tutub.

## Futbolda finalçılar müəyyənləşdi

**Olimpiya oyunlarında kişilər arasında futbol yarışının yarımfinal görüşləri keçirilib. Finala vəsiqə uğrunda Meksika komandası Braziliya, ev sahibi Yaponiya isə İspaniya millisi ilə qarşılaşıblar.**

Qolsuz heç-heçə ilə başa çatan Meksika - Braziliya matçında qalib 11 metrlik cərimə zərbələri seriyasında müəyyənləşib. Braziliyalılar 4:1 hesabı ilə qalib gələrək Olimpiya oyunlarında ardıcıl üçüncü dəfə finala vəsiqəni təmin ediblər.

Yaponiya - İspaniya matçında da əsas vaxtda qalib müəyyənləşmədiyindən 15 dəqiqəlik iki əlavə hissə oynanılıb. Görüşün 115-ci dəqiqəsində ispaniyalıların heyətində Marko Asensio rəqib qapısına yol taparaq komandasının finala yüksəlməsində həlledici rol oynayıb.

Beləliklə, avqustun 7-də “Tokio-2020”nin finalında Braziliya və İspaniya yığmaları qarşılaşacaqlar. Meksika və Yaponiya seçmələri avqustun 6-da bürünc medal uğrunda üz-üzə gələcəklər.

Qadınların futbol yarışının finalında isə İsveç və Kanada komandaları görüşəcəklər. Üçüncü yer uğrunda oyunda Avstraliya və ABŞ seçmələri qarşılaşacaqlar. Bürünc medal uğrunda qarşılaşma avqustun 5-də, final görüşü isə ertəsi gün keçiriləcək.



## “Ay-ulduzlu” voleybolçular mübarizəni dayandırdılar




**Voleybol üzrə qadınlardan ibarət Türkiyə millisi “Tokio-2020”də növbəti oyununu keçirib. “Ay-ulduzlular” 1/4 final mərhələsində Cənubi Koreya seçməsi ilə üz-üzə gəlib.**

Qarşılaşma Cənubi Koreyanın 3:2 (17:25, 25:17, 28:26, 18:25, 15:13) hesablı qələbəsi ilə yekunlaşıb.

Beləliklə, Türkiyə millisi Olimpiada ilə vidalaşıb.

## Polşalı atletdən ardıcıl 3-cü Olimpiya çempionluğu

**Polşalı qadın atlet Anita Vlodarçik “Tokio-2020”də qızıl medal qazanıb. Çəkicatma növündə yarışan 36 yaşlı idmançı 78,48 metr nəticə ilə bütün rəqiblərini geridə qoyub. O, ardıcıl üçüncü dəfə Olimpiadada qızıl medala sahib çıxıb.**

“London-2012” və “Rio-2016”da da fəxri kürsünün ən yüksək pilləsinə qalxan Vlodarçik həmçinin 3 qat dünya və 4 qat Avropa çempionudur.




## Rusiyalı idmançı koronavirusa yoluxdu



Rusiyalı qadın karateçi Anna Çernışeva Olimpiya oyunlarında iştirak etməyəcək.

55 kq çəki dərəcəsində çıxış edən idmançının koronavirus testi müsbət çıxıb. Çernışeva bu səbəbdən Olimpiada ilə vidalaşmalı olub.

Azərbaycanı bu növdə İrina Zaretska təmsil edəcək. 61 kq çəki dərəcəsindən yuxarı mübarizə aparan idmançı avqustun 7-də yarışda çıxış edəcək.

## Yunanıstanlı üzgüçülər karantinə alındılar



**Sinxron üzgüçülük üzrə Yunanıstan yığması “Tokio-2020”də iştirak etməyəcək. Buna idmançıların koronavirusa yoluxması səbəb olub. Öncədən üzgüçü xanımlardan birinin testi müsbət nəticə verib. Bu gün isə onun daha üç komanda yoldaşı eyni halla üzləşib.**

Təşkilat Komitəsi sinxron üzgüçülük üzrə Yunanıstan yığmasının digər üzvlərinin də Olimpiya kəndini tərk edərək karantinə alınmasına qərar verib. Bu o deməkdir ki, yunanıstanlılar nə qrup, nə də duetlərin yarışında qüvvəsini sınayacaq.

# Beynəlxalq aləm

## Avropa yeni miqrasiya böhranına hazır olmalıdır

**Avropadan 2015-ci ildə 1,3 milyon nəfər sığınacaq istəmişdisə, ötən il cəmi 470 min miqrant bu məqsədlə sorğu vermişdir. Hazırda qaçqınların qəbulu qaydaları sərtləşdiyindən, habelə koronavirus pandemiyası davam etdiyindən qaçqınlar digər istiqamətlərə üstünlük verirlər.**



Lakin ABŞ-ın öz qoşunlarını Əfqanıstandan çıxarması qərarı və “Taliban”ın dirçəlməsi yenidən bu sahədə vəziyyəti dəyişə bilər. BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarının İdarəsi Əfqanıstanın humanitar böhran astanasında dayandığı barədə xəbərdarlıq edir. Mülki əhaliyə qarşı zorakılıq səviyyəsi artır, insanlar ev-eşiyini tərk etmək məcburiyyətində qalırlar. Təkcə cari ilin əvvəlindən bəri 270 mindən çox əfqan öz evlərindən didərgin düşmüşdür. Ölkədə məcburi köçkünlərin sayı artıq 3,5 milyona çatmışdır. Bu, əhalinin təqribən ondabir hissəsidir.

Əfqanıstanı tərk edənlər, əsasən, qonşu ölkələrə üz tutsa da, Avropaya qaçqın dalğası yenidən artmağa başlayır. Son aylar ərzində Avropa İttifaqı ölkələrində, həmçinin Norveçdə və İsveçrədə sığınacaq istəyən əfqanıstanlı qaçqınların sayı 33 faiz artmışdır. Əfqanlar suriyalılardan sonra ən böyük miqrant qrupudur və bu qrupda artım sürətlə davam edir.

Hazırda Avropa İttifaqı ölkələrinin qaçqınlarla bağlı ümumi strategiyası mümkün qədər az adam qəbul etmək cəhdlərindən ibarətdir. Bu məqsədlə Əfqanıstana və onun qonşularına, ilk növbədə Pakistana və İrana hətta maliyyə yardımı paketi planlaşdırılmışdır. Türkiyəyə, həmçinin Belarusla həmsərhəd olan Litvaya da maliyyə yardımı vəd edilmişdir. Məqsəd qaçqınları öz doğma yerləri yaxınlığında saxlamaqdır.

Son illər Avropa İttifaqı dövlətləri sığınacaq verilməsi ilə bağlı sorğulara sərt münasibət göstərsə də, əslində, ölkələrin bu məsələyə yanaşmaları xeyli fərqlənir. Məsələn, İtaliya 2020-ci ildə Əfqanıstandan olan qaçqınların sorğularının 93 faizini birinci instansiyada qəbul etmişdir. Bolqarıstanda isə bu rəqəm cəmi 1 faiz olmuşdur. Yəni bəzi ölkələr qaçqınları qəbul etməkdə istəklidir. Digərlərində isə bu həvəs yoxdur. Bu isə o deməkdir ki, böhran yaranacağı halda Avropanın vahid strategiyasının hazırlanması asan olmayacaq. Baxmayaraq ki, son illər miqrant dalğasının azalması Avropaya miqrasiya siyasətinin vahid planı və bu planın Avropa İttifaqının humanitar dəyərlərinə nə dərəcədə uyğun olacağı barədə düşünmək imkanı yaratmışdır.

Hazırda Avropa İttifaqının hər bir ölkəsi öz sərhədini qorumağa, kompromisə getməyə və ümumi işə töhfəsini verməyə hazır olmalıdır. Əks halda Avropanı yenidən miqrasiya böhranı gözləyə bilər.

*Rizvan CƏFƏROV,*
*“Azərbaycan”*

## Alimlər qara zirənin koronavirusa qarşı aktivliyini aşkar ediblər



Avstraliyanın Sidney şəhərindəki Texnoloji Universitetin alimləri COVID-19-un müalicəsində qara zirə kimi tanınan Nigella Sativa bitkisinin aktiv maddəsindən istifadə olunmasını təklif edirlər. Bu barədə “İnterfaks” Agentliyi xəbər verir.

Qeyd olunur ki, Nigella Sativa toxumlarından əsrlərboyu bir çox xəstəliklərdən, o cümlədən iltihablardan və infeksiyalardan ənənəvi müalicə vasitəsi kimi istifadə olunmuşdur.

Alimlərin gəldiyi qənaətə görə, model tədqiqatlar nəticəsində Nigella Sativanın aktiv inqrediyenti olan timoxinon maddəsinin koronavirusun tikanının zülalına “yapışdığı” və ona ağciyər infeksiyası törətməyə imkan vermədiyi məlum olmuşdur.

Timoxinon laboratoriyalarda, o cümlədən heyvanlarda geniş şəkildə öyrənilmişdir. Bu tədqiqatlar qara zirənin insanların immun sisteminə müsbət təsirini üzə çıxarmışdır.

## Ukrayna polisi hökumətin binasını ələ keçirməyə cəhd edən adamı zərərsizləşdirdi



Polis Ukrayna Nazirlər Kabinetinin binasına qumbara ilə daxil olmuş kişini saxlamışdır. UNİAN Agentliyinin verdiyi xəbərə görə, bu, müharibə veteranı Vladimir Proxniçdir.

İrpen şəhərində sahibkarlıqla məşğul olan Proxniç zərərsizləşdirildikdən sonra onun əlində döyüş qumbarası olduğu müəyyənləşdirilmişdir.

Xatırladaq ki, dünən səhər Vladimir Proxniç Nazirlər Kabinetinin binasına daxil olduqdan sonra oradakıları partlayış törədəcəyi ilə hədələmişdir. Bundan sonra Kiyev polisi məhəlləni mühasirəyə almış və xüsusi əməliyyat keçirmişdir.

Bir saatdan çox davam edən danışıqlar nəticə verməmişdir.

## ABŞ “soyuq müharibə” dövründən bəri suda ən böyükmiqyaslı təlimlər keçirir



ABŞ Hərbi Dəniz Qüvvələri “soyuq müharibə” dövründən bəri ən böyükmiqyaslı təlimlərə başlamışdır. Xorvatiyanın Split limanında keçirilən təlimlər avqustun 16-dək davam edəcək. Bu barədə “Amerikanın səsi” radiostansiyası xəbər verir.

ABŞ-ın 6-cı donanmasından bildirmişlər ki, təlimlərdə 36 gəmi, o cümlədən təyyarə gəmiləri və sualtı qayıqlar iştirak edəcək.

Təlimlərin məqsədi strateji rəqabət dövründə müasir müharibə kontekstində ABŞ Hərbi Dəniz Qüvvələrinin imkanlarını nümayiş etdirməkdir.

Təlimlər düşmənlərə siqnal verməlidir ki, amerikalı hərbçilər öz qlobal öhdəliklərinə uyğun olaraq yüksək hazırlıq səviyyəsindədirlər.

## Türkiyədə 174 yanğından 160-ı nəzarətə götürülüb

Türkiyənin 39 vilayətində baş vermiş 174 yanğından artıq 160-ı nəzarətə alınmışdır. Bu barədə APA Agentliyinin yerli bürosu xəbər verir.

Türkiyə Kənd Təsərrüfatı və Meşə Nazirliyinin Meşə Baş İdarəsindən verilən məlumata görə, hazırda ölkənin 5 vilayətində 14 sahədə meşə yanğınları davam edir. Bundan başqa, kənd təsərrüfatı sahəsində 98 yanğına müdaxilə olunmuşdur.

Hazırda yanğınların söndürülməsində 9 pilotsuz uçuş aparatı, 16 yanğınsöndürən təyyarə, 51 helikopter, 850 suçiləyən və su tankeri, 1 pilotsuz helikopter, 150 inşaat texnikası və təxminən 5250 işçi heyəti iştirak edir.



## İranda daşqınlar tüğyan edir



Son günlər İranda baş verən daşqınlar nəticəsində 8 nəfər həlak olub, 2 nəfər itkin düşüb. Bu barədə İranın Qırmızı Aypara Cəmiyyətinin Xilas və Yardımetmə departamentinin direktoru Mehdi Vəlipura istinadən “Trend” Agentliyi xəbər verir.

Vəlipurun dediyinə görə, Qəzvin vilayətində 6 nəfər həlak olub, 2 nəfər itkin düşüb, Qərbi Azərbaycan və Mazandaran vilayətlərinin hər birində 1 nəfər həlak olub.

Ümumilikdə, ölkənin 10 vilayətində - Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Tehran, Zəncan, Simnan, Qəzvin, Kürdüstan, Kirman, Mazandaran və Hörmüzqanda daşqınlar qeydə alınıb.

Məlumata görə, 3 yaralı xəstəxanaya yerləşdirilib, 85 nəfər müvəqqəti sığınacağa təxliyə olunub.

XII Qəbələ Musiqi Festivalı

# XII Qəbələ Beynəlxalq Musiqi Festivalında bir ilk

**Hər il səbirsizliklə gözlədiyimiz Qəbələ Musiqi Festivalı bu il rəşadətli ordumuzun qələbəsindən sonra böyük ruh yüksəkliyi ilə sənətsevərlərə əsl bayram sevincini yaşatdı.**



Musiqi festivalının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunması da musiqi bayramını əlamətdar hadisəyə çevirdi. Belə ki, 31 iyulda başlayan festivalda Bakı Musiqi Akademiyasının müəllim və tələbələrinin, eləcə də digər musiqi xadimlərinin iştirakı ilə geniş konsert proqramları təşkil edilib. Festivalın ikinci günündə Xalq artistləri Yeganə Axundova, Murad Hüseynov, Əməkdar artistlər İlham Nəzərov, Rövşən Quliyev, qoboy ifaçısı Əziz Pənahın yüksək səviyyədə çıxışları festivalın ən yaddaqalan konsert proqramlarından biri olub.

XII Qəbələ Beynəlxalq Musiqi Festivalında respublikamızın ilk kontratenor səs tembrinə malik müğənnisi, Azərbaycan və dünyanın bir sıra opera teatrlarında onlarla obraz yaradan, dünyanın müxtəlif ölkələrində təşkil olunan nüfuzlu beynəlxalq vokal müsabiqələrin qalibi, Əməkdar artist İlham Nəzərovun da ilk dəfə olaraq kontratenor kimi çıxış etməsi dinləyicilərin böyük rəğbətinə səbəb olmaqla yanaşı, festival tarixində əlamətdar hadisəyə çevrilib.

İldən-ilə fərqli və maraqlı konsert proqramlarını təqdim edən Qəbələ Beynəlxalq Musiqi Festivalı bu il də gözəl ifalarla yaddaşlarda qalacaqdır.

*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Bakı şəhəri (12 rayon üzrə) və Abşeron, Ağcabədi, Ağstafa, Ağdam, Ağsu, Astara, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Qax, Qazax, Qəbələ, Quba, Qusar, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naftalan, Neftçala, Oğuz, Saatlı, Sabirabad, Salyan, Samux, Sumqayıt, Siyəzən, Şabran, Şamaxı, Şəki, Şəmkir, Şirvan, Tərtər, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zərdab şəhər və rayonları üzrə)", "Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili (Bakı şəhəri Yasamal, Sabunçu, Nəsimi, Gəncə, Ağcabədi, Ağsu, Beyləqan, İmişli, Kürdəmir, Qəbələ, Qobustan, Siyəzən, Şabran, Şamaxı, Oğuz, Şəki, Şirvan, Hacıqabul, Sabirabad şəhər və rayonları üzrə), "Ahıllar üçün günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili (Abşeron, Sumqayıt, Gəncə, Bakı şəhəri Sabunçu, Xəzər, Binəqədi, Pirallahı, Mingəçevir, Lənkəran, Xaçmaz şəhər və rayonları üzrə) və "İnsan alveri qurbanları üçün sosial-reabilitasiya mərkəzinin fəaliyyətinin təşkili" adlı

**müsabiqələr keçirir**

Müsabiqələrdə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 19 avqust 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 20 avqust 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5031)

*Müsabiqə komissiyası*



**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 04 iyun 2021-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərə diqqət və qayğının artırılması məqsədilə maarifləndirici nəşrlərin hazırlanması" adlı müsabiqə baş tutmamış hesab edilmişdir, "Əlilliyi olan şəxslərin iştirakı ilə inklüziv incəsənət nümunələrinin hazırlanması" müsabiqəsinin qalibi "Oyun Teatrı" MMC olmuşdur.

*Müsabiqə komissiyası*


# Ümid ümidləri doğruldur

**Abşeron rayonunun yetirməsi Ümid Aslanov Serbiyanın Paracin və Senta şəhərlərində keçirilən beynəlxalq şahmat turnirlərində yüksək nəticələr əldə edib.**




Şahmatçı Paracində 57, Sentada isə 80 fide əmsalı üzrə reytinqini əhəmiyyətli dərəcədə artırıb. Qeyd edək ki, idmançımız həmin turnirlərdən əvvəl 2019 reytinqə malik idisə, indi onun bu göstəricisi 2155-dir.

Sözügedən turnirlərdə Ümid 2 beynəlxalq usta ilə bərabərlik edib, idman ustalarına isə qalib gəlib. Ümidin atası Fuad Aslanov bildirib ki, artıq oğlu kiçik yaş qruplu yarışlara qatılmır, o, yalnız reytinq, fide əmsalını qaldırmaq üçün beynəlxalq turnirlərdə iştirak edir. Ümidin məqsədi beynəlxalq usta, gələcəkdə isə qrossmeyster normalarını əldə etməkdir. Yeri gəlmişkən qeyd edək ki, beynəlxalq usta norması 2400, qrossmeyster norması isə 2500 fidedir.

Ümidin sözügedən titullara çox yaxınlaşdığını deyən F.Aslanov oğlunun Abşeronun şahmat tarixində bir sıra rekordlar əldə etdiyini söyləyib. Deyib ki, oğlu 15 yaşında ölkəmizin 16 yaşa qədər olan yığmasında ilk 5 şahmatçıdan biridir. Qarşıda bir neçə turnir Ümidi imtahana çəkəcək. Yığmanın tərkibində bu ilin oktyabr ayında Ümid Naxçıvanda keçiriləcək FİDE-nin Olimpiadasına qatılacaq.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Sabah Abşeron yarımadasının bəzi yerlərində 40° isti olacağı proqnozlaşdırılır

Azərbaycanda avqustun 5-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 24-27°, gündüz 36-39°, bəzi yerlərdə 40° isti, Bakıda gecə 24-26°, gündüz 37-39° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət 50-55, gündüz 25-30 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda isə 26-27° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 5-də Abşeron yarımadasında isti hava şəraiti fonunda zəif küləklərin üstünlüyü və günün bəzi saatlarında havada yaranan durğunluq meteohəssas insanlar üçün əlverişsizdir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-39°, bəzi yerlərdə 41° isti, dağlarda gecə 13-18°, gündüz 24-29° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 34-39° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 32-37° isti, dağlarda gecə 10-15°, gündüz 22-27° isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-39°, bəzi yerlərdə 41° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-24°, gündüz 32-37° isti, dağlarda gecə 20-22°, gündüz 25-30° isti olacağı gözlənilir.

# Yardımlı rayonundakı meşə zolağında yangının söndürülməsi əməliyyatları davam edir

Yardımlı rayonu, Honuba kəndi yaxınlığında mürəkkəb relyefli dağlıq ərazidəki meşə zolağında baş vermiş yanğının söndürülməsi istiqamətində tədbirlər fasiləsiz olaraq davam etdirilir.





Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ilkin hesablamaya əsasən, təqribən 30 hektar ərazi yanıb. Hazırda aktiv yanğın ocaqları təqribən 1 hektar ərazini əhatə edir. Yanğının geniş əraziyə yayılmasının qarşısının alınması və söndürülməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidməti, Mülki müdafiə qoşunları, Xüsusi Riskli Xilasetmə Xidməti və Cənub Regional Mərkəzinin müvafiq qüvvələri, Aviasiya dəstəsinin 1 ədəd helikopteri, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşə Təsərrüfatı Mərkəzinin və Regional Ekologiya İdarəsinin əməkdaşları və yerli sakinlər yanğınsöndürmə işlərinə cəlb olunub.

Yanğın mürəkkəb relyefli yüksək dağlıq ərazidə baş verdiyindən yanğının söndürülməsində əsasən əl əməyindən istifadə olunur.

Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək qarşıdakı günlərdə havanın temperaturunun daha da yüksəlməsi fonunda yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi səhiyyə nazirinin müavini Nigar Əliyevaya atası

**RAMİZ BAXIŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-şöbə müdiri Natiq Əmirova əzizi

**SƏYALI İSLAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-şöbə müdiri Natiq Əmirova əzizi

**SƏYALI İSLAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qambay Muradov, Cavid Əsədov, Abid Əliyev, Rüstəm Rüstəmov, Ayaz və Əlikram Qasımovlar, Müasir Abdullayev, Elxan İlyasov və Rafiq Hüseynov istefada olan polkovnik Hacı Ağaməmməd Məmmədova bacısı

**ROZA İBRAHİM QIZININ**

Sumqayıt şəhərində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4853
Sifariş 1392
Qiyməti 40 qəpik